QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 230 (6194) 23 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə hərbi qulluqçularımız üçün dəstək aksiyası davam etdirilir

Bax 4



*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu və “Bravo” supermarketlər şəbəkəsi işğaldan azad olunmuş ərazilərimizdə xidmət edən hərbi qulluqçularımız üçün yeni...*

## 200 ildən sonra yazılmış əbədi tarixi gerçəklik - İlham Əliyev, qalibiyyət fenomeni!

*Mütərəqqi dövlət xadimi: Prezidentin üzərinə düşən missiyanın mühüm xarakterləri*



Bax 8

## ASPA-nın vitse-prezidenti: 2020-ci il Prezident İlham Əliyevin xarici siyasəti üçün çox mühüm il oldu



Bax 5

*2020-ci il Azərbaycanın və onun Prezidenti İlham Əliyevin xarici siyasəti üçün çox mühüm, hətta deyərdim ki, tarixi il oldu. Bu barədə AZƏRTAC-a müsahibəsində AŞPA-nın vitse-prezidenti, Ukrayna Ali Radasının...*

## Nazirlər Kabineti yanında Operativ Qərargah sərtləşdirilmiş xüsusi karantin rejiminin icrasına nəzarətin gücləndirilməsini müzakirə edib



Bax 5

*Dekabrın 22-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın videokonfrans formatında iclası keçirilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir sərtləşdirilmiş xüsusi karantin rejiminin tələblərinə və sanitar epidemioloji normalara qeyd-şərtsiz tam əməl...*

## Azərbaycanlılara işgəncə vermiş erməni həbs olundu



*Birinci Qarabağ müharibəsində azərbaycanlı əsirlərə işgəncə verən Ermənistan vətəndaşı barəsində həbs qətimkan tədbiri seçilib. Bakı Hərbi Məhkəməsində Ermənistan vətəndaşı Lüdviq Mkrtçyanın barəsində həbs qətimkan tədbirinin seçilməsinə dair istintaq orqanının verdiyi təqdimata baxılıb. Məhkəmə təqdimatı təmin edib...*

Bax 6

Bax 5

## 29 ildən sonra Azərbaycandan Xankəndinə ilk təyinat



*Azərbaycan Respublikası Ədliyyə nazirinin əmrinə əsasən, işğaldan azad edilmiş ərazilərdə yerli ədliyyə qurumlarının yeni strukturu və ştat bölgüsünün təsdiq edilməsi ilə əlaqədar müvafiq vəzifələrin icrası barədə verilən təkliflər və müraciətlər nəzərə alınaraq, Xankəndi şəhər icra və probasiya şöbəsinin rəisi vəzifəsinin icrası, Xocalı şəhər icra və probasiya şöbəsinin rəisi, ədliyyə müşaviri Başirov Rac Şükür...*

### Ermənistan tarixi dilemma qarşısında



Bax 14

### “Barselona”nın transfer hədəfi: Memfis Depay və Erik Qarsiya!



Bax 16

### Paşinyan elə bir şok sənəd yaydı ki...



Bax 11

# Prezidentə yazırlar: Xalqla olan birliyiniz Sizin Zəfər yolunuza işıq saldı!



***Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. Onlar Vətən müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirir, dövlətimizin başçısına təşəkkür edirlər. SİA Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir:***

Raşit İşcandan, Karaman, Türkiyə

Hörmətli cənab Prezidentimiz İlham Əliyev.

Mən Türkiyənin Karaman şəhərindəki Mərkəzi İmam Hatip Liseyinin şagirdiyəm. Azərbaycanı çox sevirəm. Bu sevgimi bildirmək, Azərbaycan Ordusuna dəstəyimi ifadə etmək üçün gündəlik xərcliyimdən topladığım 1000 türk lirəsini Silahlı Qüvvələr Fonduna göndərmişəm. Sizlər orada Vətən torpağı üçün canla-başla mübarizə apararkən topladığım pulu xərcləməyi özümə halal bilmərəm və bununla tarixi mübarizənizdə az da olsa payımın olmasını istəyirəm. Mənim Azərbaycana olan sevgimi, səmimi hisslərimi qəbul edin.

Siz ata-baba torpaqlarınızda qəhrəmanlıq dastanı yazırsınız. Rəbbim Sizə və şanlı Ordunuza zəfərlər nəsib etsin. Qəlbim və dualarım daim Sizinlədir. İnşallah, imkan olanda Azərbaycanı ziyarət edəcəyəm, ikinci Vətənimlə bağlı xəyallarımı həyata keçirəcəyəm.

Siz də yəqin ki, gələcəkdə gözəl Türkiyəmizə səfər edəcəksiniz. Fürsət və qismət olarsa, türk və İslam dünyasının iki güclü Liderini ziyarət edib əllərinizdən öpmək arzumdur.

Sizi və can Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm. Bu haqq savaşınızda Allah yar və yardımçınız olsun. Mən Azərbaycan Ordusuna hər zaman kömək etməyə hazıram.

Veysel Barkan İpəkdən, Antalya, Türkiyə

Cənab Müzəffər Ali Baş Komandanım.

Erməni terrorçuları tərəfindən işğal olunmuş torpaqlarımızı azad etməklə Siz bütün türklərin başını göylərə qaldırdınız. Türkiyədə yaşayan hər bir insan Sizin möhtəşəm Qələbənizə, Azərbaycan Ordusunun və Azərbaycan xalqının Zəfərinə ürəkdən sevinir.

Torpaqlarımızın azadlığı yolunda şəhid olan əsgərlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa, ailələrinə isə səbr diləyirik.

Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan Ordusu! Yaşasın türk milləti! Yaşasın Müzəffər Ali Baş Komandanımız İlham Əliyev!

Valeh Abdullayevdən, Ağdam, Azərbaycan

Möhtərəm Prezident, cənab Müzəffər Ali Baş komandan.

Siz bizə ən xoş günlərimizi, ən xoş arzularımızı Cəbrayılın, Zəngilanın, Xocalının, Füzulinin, Xocavəndin, Ağdamın, Ağdərənin, Xankəndinin, Kəlbəcərin, Laçının, Azərbaycanın döyünən ürəyi olan Şuşanın işğaldan azad edilməsi və Qələbəmizin təmin olunması xəbərlərini bizə çatdırmaqla yaşatdınız, 27 illik Vətən həsrətimizə son qoydunuz.

Dünyaya göz açdığım doğma Ağdamın Güllücə kəndinə qaydacağımız gün yaxındadır. Bu tarixi Zəfər bayramını bizə yaşatdığınız üçün Sizə sonsuz minnətdarlığımızı bildiririk, cənab Prezident! Uca Tanrı Sizə yar olsun! Eşq olsun Müzəffər Ali Baş Komandanımıza! Yaşasın rəşadətli Ordumuz!

Elcan Mirzəyevdən, Şuşa, Azərbaycan

*Cənab Ali Baş Komandan.*

Hazırda Azərbaycan xalqı tarixinin ən gözəl günlərini yaşayır. Mən özüm də əslən Şuşa rayonundanam Bizə bu sevinci yaşatdığınız üçün Sizə təşəkkür edirəm. Siz Azərbaycan tarixinə adınızı qızıl hərflərlə yazdıdınız.

Vətənim Şuşa şəhəri Sizin sayənizdə azadlığa qovuşdu. Sizin 17 illik hakimiyyətiniz müddətində Azərbaycan böyük inkişaf yolu keçib, regionda iri iqtisadi layihələr reallaşdıraraq dünyada söz sahibinə çevrilib. Hazırda Azərbaycan inkişafına görə Avropa ölkələri ilə müqayisə ediləcək səviyyədədir.

Həmçinin əhalinin rifahı yüksəlib, ölkəmizdə turizm sahəsi inkişaf edib. Eyni zamanda, Azərbaycan beynəlxalq idman yarışlarına ev sahibliyi edir. Ölkəmizi dünyanda tanıtdığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. İnanıram ki, Sizin rəhbərliyinizlə Azərbaycan daha da inkişaf edəcək və yaxın zamanda dünyanın super gücünə çevriləcək.

Siz xalqımızın xoşbəxtliyində çox böyük rol oynamışınız. İnanıram ki, Siz cənnət Qarabağımızı yaxın gələcəkdə gülüstana çevirəcəksiniz. Sizə gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm.

Əzizxan Hüseynovdan, İmişli, Azərbaycan

*Hörmətli cənab Prezident.*

Bütün Azərbaycan vətəndaşları kimi, mən və ailə üzvlərim də Sizə və Mehriban xanıma cansağlığı, yenilməz, müzəffər Ordumuza Qələbə uğurları arzulayırıq. Qoy, Ulu tanrı xalqımıza kömək olsun!

Şükür Allaha ki, Ordumuz qanı ilə, canı ilə tarixi Qələbəni qazandı. Mümkün qədər az itki ilə qazanılmış bu Qələbə Sizin müdrik siyasətinizin, gecə-gündüz əzmlə çalışmağınızın nəticəsidir. Sizə edilən bütün xoş alqış və dualar halaldır. Allah Sizi qorusun. Azərbaycan Respublikasının Prezidenti kimi Sizinlə fəxr edirik.

Mikayıl Qeybullayevdən, Şəki, Azərbaycan

Hörmətli Prezident, cənab Ali Baş Komandan.

Bu gün bütün Azərbaycan qürur hissi ilə Sizin müdrikliyinizdən, uzaq gələcəyə yönələn tədbirlərinizdən və bütün bunların uğurlu nəticəsi olaraq erməni faşizmi üzərində parlaq Qələbənizdən, əzəli topaqlarımızın azad edilməsindən danışır. Bizim Zəfərimiz bütün dünyanı silkələmiş, mat vəziyyətinə salmışdır. Qısa müddət ərzində “dəmir yumruq” mənfur düşmənin başını elə əzmişdir ki, o, uzun müddət özünə gələ bilməyəcək.

Cənab Prezident, Siz öz bacarığınız, mətinliyiniz, dönməzliyiniz və ən əsası, torpaqlarımızın düşmən tapdağından qurtulması məqsədilə çoxmillətli Azərbaycan xalqını birləşdirməyə nail oldunuz. Müharibə dövründə 30-dan çox xarici informasiya kanalına verdiyiniz dolğun müsahibələrinizlə Siz sübut etdiniz ki, Ulu Öndər məktəbinin yetirməsisiniz. Səbriniz, iradəniz, sualları cavablandırmaq tərziniz, diplomatiyanız “prokuror” kimi sorğu-sual edənləri şoka salmışdı. Onlar şərtlə gəlib suyu süzülə-süzülə qayıtdılar. Bu, milyonlarla insanın Azərbaycan, münaqişə haqqında fikirlərinin dəyişməsinə, bəzi ölkə başçılarının utancına səbəb oldu. Dünyanın hər yerində milyonlarla insan Sizi öz kumirinə çevirdi, çalışdı ki, mədəniyyəti, hazırcavablılığı, savadı ilə Sizə oxşasın, Sizi təlqin etsin.

Hörmətli cənab Prezident, biz Sizi “Azərbaycan Milli Qəhrəmanı” və ən yüksək hərbi vəzifə daşıyan insan kimi görmək istəyirik. Siz buna layiq Vətən oğlusunuz! Yaşasın Müzəffər Odumuz! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!

Sənəm Məmmədovadan, Ağsu, Azərbaycan

*Hörmətli cənab Prezident.*

Sizin uzaqgörən siyasətiniz nəticəsində Qarabağ torpaqları düşmən işğalından azad edildi. Buna görə Sizə dərin təşəkkürümü bildirirəm.

Allah ulu öndərimiz Heydər Əliyevə rəhmət eləsin, Sizin kimi cəsur və dərin zəkalı savadlı övlad yetişdirib. Əziz Prezidentimiz, Sizə möhkəm cansağlığı arzulayıram. Sizinlə fəxr edirik. Qarabağ Azərbaycandır!

Gülnar Əlizadədən, Şəki, Azərbaycan

Cənab Müzəffər Ali Baş Komandan.

Qarabağ münaqişəsini birdəfəlik həll etdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Siz böyük, yorulmaz səylər göstərməsəydiniz, hazırda Qarabağ yenə mənfur düşmənin tapdağı altında olardı. Cənab Prezident, arzu edirəm ki, Siz daim Azərbaycan Respublikasının Ali Baş Komandanı olasınız. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

Vüsalə Hacıyevadan, Sumqayıt, Azərbaycan

Möhtərəm cənab Prezident.

İcazə verin, möhtəşəm Qələbə münasibətilə Sizə dərin minnətdarlığımı bildirim. Siz təqvimdəki işğal günlərini ləğv edib, bizə Zəfər Günü yaşatdınız.

Mənim uşaqlığım doğma Qubadlıda, Cəbrayılda keçib. Lakin uzun illər idi ki, işğal altında olan ata-baba yurdlarımıza həsrət qalmışdıq. Buna baxmayaraq, hər zaman ürəyimizdə bir inam var idi ki, Ali Baş Komandanımız mütləq torpaqlarımızı işğaldan azad edəcək. Həmin gün nəhayət ki, gəlib yetişdi. Şükür Allaha ki, bu günləri yaşamaq bizə nəsib oldu. Çox xoşbəxtəm ki, səs verdiyim, dəstəklədiyim, qəlbən inandığım Prezident işğal altında olan bütün torpaqlarımızı azad etdi.

Cənab Prezident, 44 günlük müharibə bütün dünyaya Sizin necə müdrik siyasi xadim, diplomat və güclü sərkərdə olduğunuzu, müzəffər Ordu qurduğunuzu bir daha göstərdi. Sizin televiziya vasitəsilə etdiyiniz bütün çıxışları ailəlikcə sevə-sevə dinlədik və paylaşdıq, Sizinlə hər zaman qürur duyduq və bir an belə ümidsizliyə qapılmadıq. Siz təkcə torpaqlarımızı deyil, bizim uşaqlıq xatirələrimizi işğaldan azad etdiniz. İndi mən Cəbrayılda, Qubadlıda babalarımın evlərini ziyarət edəcəyəm, o yerləri bir də görəcəyim günü səbirsizliklə gözləyirəm.

**Ardı Səh. 3**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev “Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 173 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Prezidentə yazırlar: Xalqla olan birliyiniz Sizin Zəfər yolunuza işıq saldı!

Əvvəli Səh. 2

Bu xoşbəxtliyi bizə nəsib etdiyiniz üçün Sizə sonsuz minnətdarlığımı bildirirəm. Sizin rəhbərlik etdiyiniz ölkədə yaşadığım üçün çox xoşbəxtəm. Allah hər zaman Sizə kömək olsun.

Mədinə İbadovadan, Şirvan, Azərbaycan

*Cənab Ali Baş Komandan.*

Bu gün bütün Azərbaycan xalqı Sizin komandanlığınız altında gerçəkləşən tarixi Zəfərin qürurunu yaşayır. Siz bu qələbənizlə min illərə söykənən tariximizdə hər sətiri qızıl hərflərlə yazılan yeni səhifə yaratdınız. Gücümüzü bütün dünyaya nümayiş etdirdiniz. 30 ilə yaxındır azadlıq həsrəti ilə çırpınan Qarabağımızda qaldırdığınız Zəfər Bayrağı bizim hər birimizin qürur mənbəyidir.

Möhtərəm cənab Prezident, hər bir vətəndaşımız bu müqəddəs amal uğrunda apardığınız haqq mübarizəsində Sizin ətrafınızda bir yumruq kimi birləşərək, Sizinlə birgə addımladı və bundan sonra da addımlayacaq. Xalqla olan birliyiniz Sizin Zəfər yolunuza işıq saldı.

Vətən müharibəsində qəhrəmanlıq göstərərək şəhadətə yüksələn şəhid övladlarımızın ailələrinə, qazilərimizə göstərdiyiniz hərtərəfli diqqət və qayğı Sizin ölkəmizin hər bir vətəndaşına verdiyiniz ali dəyərin təzahürüdür.

Biz Sizinlə fəxr edirik. Var olun, cənab Ali Baş Komandan!

İkram Kərimovdan, Gəncə, Azərbaycan

Möhtərəm Prezident, cənab Ali Baş Komandan.

Mən hər zaman Sizin siyasətinizi dəstəkləmişəm. Siz 27 il həsrətində qaldığımız dədə-baba torpaqlarımızı özümüzə qaytardınız. Siz ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq onun nəsihətlərini, vəsiyyətini yerinə yetirdiniz.

Cənab Prezident, Sizə və Türkiyə Prezidenti hörmətli Rəcəb TayyibƏrdoğana çox minnətdaram. İndi çox rahatam, öz ata-baba yurdum olan Kəlbəcər rayonunun Ağyataq kəndinə qayıdacağam, atamın məzarını ziyarət edəcəyəm. Bir arzum da var, doğma kəndimə qayıdaraq Sizin və Türkiyə Prezidenti Rəcəb TayyibƏrdoğanın ayaqları altında qurban kəsim. Allah hər ikinizi qorusun. İnşallah, 100 illik yubileylərinizi Şuşada, Kəlbəcərdə qeyd edəsiniz.

Cənab Prezident, istərdim ki, kəndimizdə yerləşən civə zavodunun fəaliyyəti tezliklə bərpa edilsin.

Cənab Prezident, Sizə uzun ömür, möhkəm cansağlığı arzulayır, torpaqlarımızın azad olunması münasibətilə Zati-alinizi səmimi-qəlbdən təbrik edirəm. Daha bir arzum isə Sizə "Marşal" hərbi rütbəsinin verilməsidir.

Bəhrəm Hüseynlidən, Bakı, Azərbaycan

*Cənab Ali Baş Komandan.*

Sizə dərin təşəkkürümü bildirirəm ki, bizə bu sevincli günləri yaşatdınız.

Mən xoşbəxtəm ki, Sizin kimi bir müdrik Lideri olan ölkədə yaşayıram. Sizinlə qürur duyuram. Allah Sizə uzun ömür, cansağlığı versin.

**Qarabağ Azərbaycandır!**

Fərid Babayevdən, Qusar, Azərbaycan

Hörmətli cənab Prezident.

Sentyabrın 27-dən sonra yaşadığımız günlər tariximizin unudulmaz və parlaq səhifəsidir. 30 il ərzində gözlədiyimiz, arzuladığımız nəticəni cəmi 44 gündə əldə etdik. Bu Qələbənin qazanılmasında Sizin cəsarətiniz, uzaqgörənliyiniz, vətənpərvərliyiniz, liderə xas olan bütün keyfiyyətlərimiz əsas rol oynadı. Lider-xalq birliyi, hərtərəfli hazırlıqlı yenilməz Azərbaycan Ordusu Qələbəmizin əsasını təşkil etdi.

Siz bu Qələbə ilə bütün dünyaya sübut etdiniz ki, torpaqlarının işğalı ilə barışmayan mübariz Azərbaycan xalqı var. Düşməni məğlub etməklə, həm də bölgədə qara ləkə olan erməni faşizmini məhv etdiniz.

Yenilməz Azərbaycan Orduсuna eşq olsun!

Tanrı Sizi qorusun!

**Qarabağ Azərbaycandır!**

Rahib Abdullayevdən, Abşeron, Azərbaycan

*Cənab Müzəffər Ali Baş Komandan.*

Sizin yürütdüyünüz uzaqgörən siyasət nəticəsində bu gün Azərbaycan xalqı bayram edir. Möhtəşəm Qələbə münasibətilə Sizi şəxsən öz adımdan, ailəmin adından ürəkdən təbrik edir, Sizə və müzəffər Ordumuza təşəkkürlərimizi bildiririk.

Otuz ilə yaxın müddətdə düşmən tapdağı altında qalan torpaqlarımız Sizin qətiyyətli addımlarınız, ordu quruculuğu sahəsində apardığınız uğurlu siyasət nəticəsində 44 gün ərzində işğaldan azad olundu. Bu sevincli günləri xalqımıza yaratdığınız üçün Allah Sizi, cəsur hərbçilərimizi qorusun. Uca Yaradan Sizin kölgənizi Azərbaycan xalqının üzərindən əskik etməsin. Qarabağ Azərbaycandır!

Aqşin Nəzərovdan, Bakı, Azərbaycan

Hörmətli Prezident, cənab Ali Baş Komandan.

Mən 1997-ci ildən televiziya sahəsində çalışıram. O vaxtdan bu gündək ölkədə baş verən bütün ictimai-siyasi hadisələrin canlı şahidiyəm - ulu öndər Heydər Əliyevin torpaqlarımızın işğalının qarşısını almasından Sizin kimi Fatehin ərazilərimizi azad etməsinə qədər.

Cənab Prezident, sağ olun ki, bizə bu duyğuları yaşatdınız. Mən Birinci Qarabağ müharibəsinin iştirakçısıyam. Çox heyif ki, o zaman Sizin kimi Komandanımız olmadı. On mindən artıq hərbçi şəhid oldu, ərazilərimiz qəsb edildi, mülki əhaliyə divan tutuldu, insanlar evlərindən didərgin düşdülər. Bir televiziya işçisi kimi bundan sonra Sizin sayənizdə ağrılı-acılı işğal günləri, soyqırımları haqqında deyil, Zəfər, qürurlu Qələbə dolu proqramlar hazırlayacağıq. Ulu Öndərimiz bizə azərbaycanlı olmağımızın fəxrini yaşatdı, Siz isə azərbaycanlı olmağımızın qürurunu. Dəmir yumruq İlhamdır, Qarabağ Azərbaycandır!

Nurlan Vəlişovdan, Beyləqan, Azərbaycan

Hörmətli Prezident, cənab Ali Baş Komandan,

Sizin hərbçilərə verdiyiniz dəyər hamımızı daha böyük qələbələrə ruhlandırır.

Adımın "Cəsur döyüşçü" medalı ilə təltif olunanların siyahısında olması məni və ailə üzvlərimi çox sevindirdi.

Şəxsən öz adımdan və ailəmin adından Sizə möhkəm cansağlığı, uğurlar, daim ailənizin və dövlətimizin başında olmağınızı arzu edirəm. Var olun, Allah Sizi qorusun!

Mikayıl İsmayılovdan, Şamaxı, Azərbaycan

Hörmətli cənab Ali Baş Komandan.

Sizi Vətən müharibəsində qazanılan Qələbə münasibətilə təbrik edirəm. Sizin rəhbərliyinizlə qazanılan zəfərlərdən sonra Azərbaycan üçün yeni dövr başlayır. Yeni dövrdə biz artıq qalib xalq kimi çıxış edəcəyik. Biz bu şərəfli adı Sizin uzun illər yorulmadan göstərdiyiniz səylərin, gərgin fəaliyyətinizin, xalqımızın birliyinin, şəhidlərimizin canı, qanı sayəsində əldə etdik.

Sizin uzaqgörən siyasətiniz sayəsində şanlı Ordumuz Azərbaycanın adını ucaltmağa nail oldu. Biz artıq öz gücümüzə inanan, gələcəyə nikbin baxan xalqıq.

Sizə uzun ömür, cansağlığı arzu edirəm.

Uca Allah Sizi xalqımızın üstündən əskik etməsin.

# Prezident İlham Əliyev: Azərbaycan pandemiyaya qarşı qlobal müstəvidə də fəal rol oynayır

***Azərbaycan pandemiya dövründə də iqtisadi sahədə yaxşı nəticələr göstərir. Təkcə onu demək kifayətdir ki, bu gün dünyada 150-dən çox ölkə yardım üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Yəni, onların daxili maliyyə resursları imkan vermir ki, lazım olan işlər görülsün. Azərbaycanın bu siyahıda adı yoxdur. Biz o ölkələrdənik ki, öz gücümüzə bu bəla ilə mübarizə aparırıq.***

Onu da bildirməliyəm ki, biz artıq 10-dan çox ölkəyə yardım göstərmişik, yük təyyarələri, tibbi ləvazimat, dezinfeksiya materialları göndərmişik. Bəzi ölkələrə maliyyə yardımı göstərmişik. Ümumdünya Səhiyyə Təşkilatına iki dəfə donor ianəsi etmişik. Belə ölkələrin sayı o qədər də çox deyil. Bu, bizim məsuliyyətimizi göstərir. Onu göstərir ki, biz pandemiyaya qarşı qlobal müstəvidə də fəal rol oynayırıq.




"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 103-cü kitabında yer alan bu fikirlər dövlətimizin başçısının bu il mayın 12-də Sumqayıtda "Gilan Tekstil Park" MMC-nin Tibbi Maska Fabrikinin və Tikiş Fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılış mərasimindəki çıxışından götürülüb.

AZƏRTAC xəbər verir ki, çoxcildliyin növbəti kitabındakı materiallar 2020-ci ilin may-iyun aylarını əhatə edir.

Yeni kitabda Prezident İlham Əliyevin Rusiyanın TASS İnformasiya Agentliyinə və "Natsionalnaya oborona" jurnalına müsahibələri, Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakava və bank rəhbərliyinin digər nümayəndələri arasında keçirilən videokonfransda, paytaxtın Bilgəh qəsəbəsində, Sumqayıtda və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan mobil tipli xəstəxanaların açılışı mərasimlərində çıxışlarının mətnləri toplanılıb.

Nəşrdə dövlət başçısının Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılış mərasimindəki çıxışı, Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışı zamanı Azərbaycan Televiziyasına müsahibəsi də yer alıb. Həmçinin yeni kitaba Prezident İlham Əliyevin Rusiya, Ukrayna, Türkiyə, Qazaxıstan prezidentləri ilə telefon danışıqlarına dair informasiyalar, bir sıra dövlət başçılarına və beynəlxalq təşkilatların rəhbərlərinə məktubları daxil edilib.

Bu cilddə oxucular Azərbaycan Prezidentinin Şamaxı, Tərtər, Ağdam və Ağcabədi rayonlarına səfərləri zamanı infrastruktur obyektlərinin, o cümlədən "ASAN xidmət" mərkəzlərinin, mədəniyyət müəssisələrinin, xəstəxanaların açılışı, ictimaiyyət nümayəndələri ilə görüşləri barədə materiallarla da tanış ola bilərlər.

Dövlətimizin başçısı bütün görüşlərində və apardığı danışıqlarda Ermənistan-Azərbaycan münaqişəsi barədə ətraflı məlumat verib, uzun illərdir Azərbaycanın terrorizmdən əziyyət çəkdiyini, işğalçı Ermənistanın xalqımıza məxsus qədim dini və digər maddi mədəniyyət abidələrini dağıtdığını diqqətə çatdırıb.

"Azərnəşr" tərəfindən buraxılan çoxcildliyin 103-cü kitabının hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə hərbi qulluqçularımız üçün dəstək aksiyası davam etdirilir







***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu və “Bravo” supermarketlər şəbəkəsi işğaldan azad olunmuş ərazilərimizdə xidmət edən hərbi qulluqçularımız üçün yeni dəstək aksiyası həyata keçirirlər. Aksiya çərçivəsində dekabrın 18-dən başlayaraq Kəlbəcər rayonu, Xocavənd rayonunun işğaldan azad olunmuş hissəsi və Hadrut qəsəbəsində hərbi xidməti davam etdirən əsgər və zabit heyəti üçün, onların istəkləri nəzərə alınmaqla, müxtəlif qida məhsulları, fərdi qulluq və gigiyenik ləvazimatlardan ibarət bağlamaların çatdırılmasına başlanılıb.***

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, növbəti belə tədbir Cəbrayıl rayonunda təşkil edilib. Dekabrın 22-də “Bravo” supermarketlər şəbəkəsinin nümayəndələri Cəbrayıl rayonunun işğaldan azad olunmuş ərazilərinə səfər edərək bağlamaları hərbi qulluqçularımıza çatdırıb, həmçinin əsgərlərimizlə söhbət edərək onların istəklərini qeydə alıblar.

Hazırda Azərbaycan Ordusu qəhrəmanlıq və şücaət göstərərək işğaldan azad etdiyi Vətən torpaqlarında xidmətini qələbə əhval-ruhiyyəsi ilə aparır. İşğaldan azad olunan ərazilərdə yerləşən qoşunlarımızın təminatının daha da yaxşılaşdırılması ilə bağlı tədbirlər davam etdirilir. Hərbi qulluqçuların yemək və geyimlə təminatı da daim yüksək səviyyədə diqqətdə saxlanılır.

Görüşüb söhbət etdiyimiz hərbi qulluqçularda yüksək əhval-ruhiyyənin, məğrurluğun şahidi olduq. Könüllü olaraq döyüşlərdə iştirak etmək üçün gələn Orxan Əbilov deyib: “Tək istəyimiz işğal altında olan torpaqlarımızı azad etmək idi. Buna da nail olduq. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə qələbə qazandıq. Əhvalımız yüksəkdir. Qalib ordunun qalib əsgərləriyik. Evimizə qürurla, sevinclə, alnıaçıq, üzüağ dönəcəyik. Bundan gözəl hiss ola bilməz”.

Anar Orucov da Vətən müharibəsi başlayanda könüllü olaraq döyüşlərə qatılıb və Şuşaya qədər döyüş yolu keçib. “Döyüşdük ona görə ki, Vətən bizim anamızdır. Hamımızın əhval-ruhiyyəmiz yaxşıdır. Vətən müharibəsində iştirak etdiyim üçün qürur duyuram. Qida və geyim baxımından da təminatımız yüksək səviyyədədir. Bizdən nigaran qalmasınlar”, - deyə o qeyd edib.

Digər müsahibimiz Kamran Behbudludur: “Doğum günümdə könüllü olaraq Vətən müharibəsinə könüllü qoşuldum. Xocavənd, Hadrut, Şuşa istiqamətində gedən döyüşlərdə iştirak etmişəm. Allaha şükür olsun ki, bizə qələbə hissini yaşamaq nəsib oldu. Döyüş tapşırıqlarını layiqincə yerinə yetirərək, torpaqlarımızı azad etdik. Ali Baş Komandanımıza təşəkkürümüzü bildiririk. Qürur hissi yaşayırıq. Ailəmə salamlarımı çatdırıram”.

Müzəffər ordunun əsgəri olan Emil Kərimli də Hadrut, Tuğ, Şuşa uğrunda döyüşlərdə iştirak edib. Deyib ki, döyüşən əsgərlər olsa da, qələbəni qazanan xalqdır. “Xalqın dualarını daim üzərimizdə hiss etdik. Var olsun xalqımız. Çiyin-çiyinə vuruşduğumuz yoldaşlarımızdan şəhid olanlar, yaralananlar da oldu. Allah şəhidlərimizə rəhmət eləsin, yaralananlara şəfa versin. Qarabağ Azərbaycandır!”

Söhbət etdiyimiz bütün hərbçilər onlara göstərilən diqqət və qayğıya görə Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, Heydər Əliyev Fonduna və “Bravo” supermarketlər şəbəkəsinə minnətdarlıqlarını bildiriblər.

## Yerevanda müxalifət hökumət binasını mühasirəyə alıb



Yerevanda baş nazir Nikol Paşinyanın istefasını tələb edən kütlə Ermənistan hökumətinin binasını mühasirəyə alıb. AZƏRTAC xəbər verir ki, Ermənistan hökumətinin binası qarşısına çoxlu sayda hüquq-mühafizə orqanlarının əməkdaşları səfərbər olunub. Aksiya iştirakçılarının bir qismi İrəvanın Respublika meydanında çadırlar qurublar. Onlar tələblərinin yerinə yetiriləndək həmin çadırlarda qalacaqlarını bildiriblər. Bu gündən, həmçinin mövcud hakimiyyətin əleyhdarları bir sıra sahələrdə tətilə başlayıblar.

Paytaxt Yerevanda, eləcə də ayrı-ayrı şəhərlərdə yollar bağlanıb. Bu səbəbdən aksiyaçılarla polis əməkdaşları arasında toqquşmalar baş verib.

Qeyd edək ki, Ermənistanda sadə vətəndaşlar, mədəniyyət, incəsənət xadimləri, müəllimlər, jurnalistlərlə yanaşı, vəkillər, idmançılar da etiraz aksiyalarında iştirak edirlər. Müxalifət baş nazir Nikol Paşinyanı 10 noyabr bəyanatına imza atmaqda ittiham edir, onun istefası tələbini irəli sürür. Lakin hökumət rəhbəri istefa verməyəcəyini bildirib.

## Əsgərlərimiz Ermənistan həbçilərini Laçına buraxmadı



Ordumuz Ermənistan Müdafiə Nazirliyinə məxsus 3 avtobusda Qarabağa gələn erməni hərbçilərin qarşısını kəsib. SİA xəbər verir ki, bu barədə “Mediaport” erməni teleqram kanalı yazır. Məlumata görə, Azərbaycan hərbçiləri erməni hərbçilərin Laçın dəhlizindən keçidinə icazə verməyib. “10 noyabr kapitulyasiya aktında əsgərlərin hərəkəti ilə bağlı heç bir müddəa yoxdur. Qarabağ Azərbaycandır, buna görə də erməni hərbçilərin orada heç bir işi ola bilməz”, - Azərbaycan hərbçiləri ermənilərə belə deyib.

Kanal yazır ki, erməni hərbçilərin olduğu 3 avtobus Gorusdakı “Sünik” (Zəngəzur) restoranının yaxınlığında gözləyirlər. Ermənistan Müdafiə Nazirliyi məsələ ilə bağlı Rusiya sülhməramlılarına müraciət edib, lakin sülhməramlılar bu məsələdə səlahiyyətlərinin olmadığını deyiblər. Ermənistanın hərbi rəhbərliyi də 3 avtobus dolu əsgərlərə Sünikdə gözləmək tapşırığı verib.

# Nazirlər Kabineti yanında Operativ Qərargah sərtləşdirilmiş xüsusi karantin rejiminin icrasına nəzarətin gücləndirilməsini müzakirə edib



***Dekabrın 22-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın videokonfrans formatında iclası keçirilib.***



Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir sərtləşdirilmiş xüsusi karantin rejiminin tələblərinə və sanitar epidemioloji normalara qeyd-şərtsiz olaraq tam əməl edilməsinin vacibliyini bildirib.

Qeyd olunub ki, Prezidentin və Birinci vitse-prezidentin təşəbbüsü ilə Azərbaycan ilk peyvənd əldə edən ölkələrdən biri olacaq.

Səhiyyə müəssisələrində vaksinləmə prosedurlarının müəyyən olunmuş normalara uyğun həyata keçirilməsi və müvafiq protokolların tərtib edilməsi ilə bağlı tapşırıqlar verilib. İclasda sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar görülən işlər barədə məlumat verilib, müvafiq nəzarət tədbirlərinin gücləndirilməsi ilə bağlı məsələlər geniş müzakirə olunub. Sərtləşdirilmiş karantin rejiminin tələblərinin icrasına nəzarətin gücləndirilməsi ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıq verilib.

# Misirli jurnalist Azərbaycanın Vətən müharibəsindəki şanlı Qələbəsindən yazıb



***Misirli jurnalist, "Asiaelyoum" informasiya agentliyinin baş redaktoru Əbubəkir Əl Məcd Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu sahəsində misilsiz xidmətlərinə və Vətən müharibəsində Qələbəmizə həsr olunan məqalə ilə çıxış edib.***

AZƏRTAC xəbər verir ki, məqalədə 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı ilə torpaqlarımızı işğaldan qurtaran və düşmən ordusunu darmadağın edən Azərbaycan Silahlı Qüvvələrinin məhz dahi siyasi xadim Heydər Əliyevin əsəri olduğu vurğulanır. Müəllif qeyd edir ki, hələ sovet hakimiyyəti illərində Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaradan, milli zabit kadrlarının yetişdirilməsinə xüsusi diqqət yetirən müdrik siyasi xadim qüdrətli ordunun dövlət müstəqilliyinin təminatçısı olduğunu deyirdi. Heydər Əliyev qürur hissi ilə vurğulayırdı: "Sizə səmimi deyirəm, Cəmşid Naxçıvanski adına Hərbi Lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona, bax bu cür baxacağam". Ümummilli Lider, həmçinin gənclərin hərbi vətənpərvərlik ruhunun artırılmasına da böyük əhəmiyyət verirdi.

Məqalədə ulu öndər Heydər Əliyevin hər bir azərbaycanlının Vətənin müdafiəsinə hazır olması, torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması ilə bağlı müdrik kəlamlarına da yer verilib.

# AŞPA-nın vitse-prezidenti: 2020-ci il Prezident İlham Əliyevin xarici siyasəti üçün çox mühüm il oldu



2020-ci il Azərbaycanın və onun Prezidenti İlham Əliyevin xarici siyasəti üçün çox mühüm, hətta deyərdim ki, tarixi il oldu. Bu barədə AZƏRTAC-a müsahibəsində AŞPA-nın vitse-prezidenti, Ukrayna Ali Radasının Xarici siyasət və parlamentlərarası əməkdaşlıq məsələləri üzrə komitəsinin sədri Aleksandr Merejko bildirib.

Onun sözlərinə görə, Prezident Əliyev zəruri iqtisadi islahatların aparılmasına, ordunun müasirləşdirilməsinə, cəmiyyətin sıx birləşdirilməsinə nail olub və məhz bu, Azərbaycanın işğal altında olan ərazilərinin kifayət qədər sürətlə və qətiyyətlə azad olunmasının qarantına çevrilib.

Aleksandr Merejko deyib: "Prezident Əliyev qələbəyə nail olmaq üçün qətiyyətli və siyasi cəhətdən dəqiq hərəkətlərin lazım olduğu vaxtı düzgün hesablamağı bacaran istedadlı dövlət xadimi olmasını sübut etdi. Azərbaycanın qələbəsi, Prezident Əliyevin qələbəsi bütün dünyaya göstərdi ki, dövlət öz ərazilərinin işğalı ilə barışmamalıdır, onların azad edilməsi üçün əsaslı surətdə və möhkəm hazırlaşmaq lazımdır. Demək olar ki, Azərbaycan həm parlaq hərbi qələbə, həm də diplomatik qələbə qazandı. Mürəkkəb geosiyasi vəziyyətə baxmayaraq, Azərbaycan öz maraqlarını müdafiə etməyi bacardı".

# 29 ildən sonra Azərbaycandan Xankəndinə ilk təyinat

***Azərbaycan Respublikası Ədliyyə nazirinin əmrinə əsasən, işğaldan azad edilmiş ərazilərdə yerli ədliyyə qurumlarının yeni strukturu və ştat bölgüsünün təsdiq edilməsi ilə əlaqədar müvafiq vəzifələrin icrası barədə verilən təkliflər və müraciətlər nəzərə alınaraq, Xankəndi şəhər icra və probasiya şöbəsinin rəisi vəzifəsinin icrası, Xocalı şəhər icra və probasiya şöbəsinin rəisi, ədliyyə müşaviri Bəşirov Rac Şükür oğluna həvalə edilib.***



SİA xəbər verir ki, bu barədə "Xocalininsesi.info" məlumat yayıb. Xankəndi şəhər icra və probasiya şöbəsinə rəis təyin edilən Rac Bəşirov Beynəlxalq Universitetinin Hüquq fakültəsini bitirib. O, 2003-cü ildən 2008-ci ilə qədər Xocalı rayon İcra Hakimiyyətində Hüquq şöbəsində hüquqşünas vəzifəsində işləyib. 2008-ci ildən indiyə qədər Xocalı şəhər icra və probasiya şöbəsinin rəisi vəzifəsində çalışır. Qeyd edək ki, Rac Bəşirov Xankəndi və Xocalı şəhər icra və probasiya şöbələrinə rəhbərlik edəcək. Hər iki şöbə hələlik Goranboy rayonunun Meşəli qəsəbəsində fəaliyyət göstərir.

29 ildən sonra ilk dəfədir ki, Xankəndidə rəsmi quruma Azərbaycan vətəndaşı rəhbər təyin edilib. Artıq Xankəndi şəhər və Kərkicahan qəsəbə sakinlərinin müraciət edə biləcəkləri hüquq orqanı vardır.

# İsveçli tədqiqatçı: " Qarabağın işğal olunması dünya tərəfindən qəbul edilmədi"



Ermənistan Qarabağ hadisələrinə qarşı dünyanın necə davranacağını düzgün hesablamadı. "Report" xəbər verir ki, bu barədə "GCRF-Compass" və ADA Universitetinin təşkil etdiyi onlayn müzakirələr zamanı isveçli tədqiqatçı, Cənubi Qafqaza dair ekspert Svante Kornel bildirib.

"Ermənistanda bir sıra səbəblərə görə, o cümlədən xristianlıq və mədəni amillərlə bağlı dünyanın rəğbətinə bel bağlamışdılar, bu da səhv idi. Onlar Qarabağın Ermənistan tərəfindən ilhaq olunmasını dünyada qəbul olunmadığını dərk edə bilmədilər. Ermənistana bu müharibəni davam etdirmək üçün kömək olmaq istəyən tapılmadı", - deyən ekspert dünyada hamının başı öz işlərinə qarışmışdı: "Məsələn, ABŞ uzun müddətdir bu regiona elə bir maraq göstərmir. Rusiyaya gəlincə, Qarabağa girməyinə girib, amma bununla nə qazandığı, nə itirdiyi hələlik tam bəlli deyil".

Ekspert xatırladıb ki, Azərbaycan və Türkiyə Ermənistanın işğalçı qüvvələrini Azərbaycan ərazisindən çıxarmasını tələb edən BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsini yerinə yetirməyi tələb etdiklərinə görə Qərb tərəfindən müəyyən tənələrə də məruz qalıblar: "Bəli, könül istər ki, Ermənistan bu qətnamələri müharibəsiz yerinə yetirsin, amma əfsuslar olsun ki, belə olmadı. Azərbaycan isə özünü regionun başlıca qüvvəsi və aktoru kimi doğrulda bildi. Fikrimcə, Azərbaycan bütün bu risqlərə və tənqidlərə baxmayaraq, Türkiyəyə yaxınlaşmaqda haqlıdır. Azərbaycan ən böyük dostunun məhz Türkiyə olduğunu düşünməkdə haqlıdır".

# Milli Məclisin plenar iclasında beş məsələyə baxılıb



***Dekabrın 22-də Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda əvvəlcə 5 məsələdən ibarət gündəlik təsdiqlənib.***

Sonra deputatlar Razi Nurullayev, Zahid Oruc, Fazil Mustafa, Əziz Ələkbərov, Siyavuş Novruzov, Sahib Alıyev, Əli Məsimli günün aktual məsələlərinə münasibət bildiriblər. 44 günlük Vətən müharibəsi günlərində olduğu kimi, bundan sonra da milli birliyin qorunmasının vacibliyi vurğulanıb, Qələbədən sonra aparılacaq bərpa-quruculuq işlərinə dair təkliflər səslənib, hərbi vəziyyət zamanı gedən informasiya müharibəsində ölkə KİV-lərinin fəal iştirakı müsbət qiymətləndirilib. Həmçinin sovet dövründə indiki Ermənistan ərazisindəki dədə-baba yurdlarından deportasiya olunan soydaşlarımızın aqibətindən söz açılıb və onların hüquqlarının tələb olunmasının vacibliyinə toxunulub, koronavirusla bağlı dinləmələrin təşkilinə və digər məsələlərə diqqət yönəldilib.

Gündəlikdəki məsələlərin müzakirəsi zamanı "Mühasibat uçotu haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edib. O bildirib ki, qanun layihəsində ediləcək dəyişiklik kommersiya təşkilatlarında, xüsusilə də kiçik və orta sahibkarlıq subyektlərində mühasibat uçotu aparılmasının təkmilləşdirilməsini nəzərdə tutur. Məlumat dinlənildikdən sonra deputatlar qanun layihəsini üçüncü oxunuşda təsdiqləyiblər.

Gündəlikdəki növbəti iki məsələ bir-biri ilə əlaqədar olduğu üçün həmin qanun layihələrini birlikdə təqdim edən komitə sədri Tahir Mirkişili əvvəlcə "Şərti maliyyə vahidi haqqında" Azərbaycan Respublikası qanununun ləğv edilməsi zərurətindən danışıb. Qeyd edib ki, 2001-ci il yanvarın 1-dək Azərbaycanda dövlət rüsumlarının, birdəfəlik rüsumların, cərimələrin, maliyyə sanksiyalarının, digər ödənişlərin hesablanmasında aylıq əməkhaqqının minimum məbləğindən istifadə olunub. 2000-ci ilin 26 dekabrında "Şərti maliyyə vahidi haqqında" Qanun qəbul edilib.

Deputatların nəzərinə çatdırılıb ki, 2008-ci ildən etibarən ölkəmizdə maliyyə sabitliyi olduğundan şərti maliyyə vahidi məbləği mütləq rəqəmlərlə əvəz edilib və Azərbaycan Respublikasının müvafiq məcəllələrində, qanunlarında, digər qanunvericilik aktlarında mütəmadi olaraq dəyişikliklər edilərək şərti maliyyə vahidi anlayışının istifadəsinin dayandırılması istiqamətində tədbirlər görülüb. Hazırda "Şərti maliyyə vahidi haqqında" Qanuna ehtiyac qalmadığı üçün bu qanun ləğv edilir.

Həmçinin şərti maliyyə vahidi anlayışına istinad edilən beş qanundan - "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Banklar haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlardan və Mülki Məcəllədən həmin ifadələr çıxarılır.

Parlamentdə qanun layihələrinin şərhi dinlənildikdən sonra məsələlər ayrı-ayrılıqda səsə qoyulub və Milli Məclis tərəfindən qəbul edilib.

Plenar iclasda "Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında" Əsasnaməyə" dəyişiklik edilməsi barədə" qanun layihəsini (ikinci oxunuş) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə təqdim edib. Bildirib ki, birinci oxunuş zamanı ortaya çıxan suallar cavablandırılıb, deputatlar tərəfindən bu layihə ilə bağlı əlavə təklif irəli sürülməyib.

Məlumat dinlənildikdən sonra qanun layihəsi ikinci oxunuşun prosedur qaydalarına uyğun olaraq səsə qoyulub və müsbət dəyərləndirilib.

İclasın yekununda "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) məsələyə baxılıb.

Qanun layihəsini Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim edib. Bildirilib ki, müharibə şəraiti dövründə, dağıntıların aradan qaldırılmasında, o cümlədən Gəncə şəhərində, Tərtər, Bərdə və digər yerlərdə dağıntıların aradan qaldırılmasında Fövqəladə Hallar Nazirliyinin əməkdaşları fədakarlıq nümayiş etdiriblər. FHN-nin yaradılmasının 15 illiyinə həsr olunan bu medalda milli atributlar da nəzərə alınıb. Bu medalın təsis olunması Azərbaycanın orden və medallarına yeni töhfə olacaq.

Müzakirələrdə deputat Razi Nurullayev də yeni yubiley medalının təsis edilməsini təqdirəlayiq hal kimi dəyərləndirib.

Sonra deputatlar qanun layihəsini birinci oxunuşda dəstəkləyiblər. Plenar iclasa yekun vuran Milli Məclisin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, dekabrın 21-də 2021-ci ilin dövlət büdcəsinə dair qanun layihələri, büdcə zərfi parlamentə daxil olub və deputatlara paylanılıb. Bu qanun layihələri komitələrdə müzakirə ediləcək. Bununla da Milli Məclisin iclası başa çatıb.

## Azərbaycanlılara işgəncə vermiş erməni həbs olundu

***Birinci Qarabağ müharibəsində azərbaycanlı əsirlərə işgəncə verən Ermənistan vətəndaşı barəsində həbs qətimkan tədbiri seçilib. Bakı Hərbi Məhkəməsində Ermənistan vətəndaşı Lüdviq Mkrtçyanın barəsində həbs qətimkan tədbirinin seçilməsinə dair istintaq orqanının verdiyi təqdimata baxılıb. Məhkəmə təqdimatı təmin edib. Lüdviq Mkrtçyanın barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.***



Qeyd edək ki, Lüdviq Mkrtçyan Azərbaycan Cinayət Məcəlləsinin 113-cü (tutulmuş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərə fiziki ağrılar və ya psixi iztirablar vermə) maddəsi ilə təqsirli bilinir. APA-nın əldə etdiyi məlumata görə, Lüdviq Mkrtçyan Birinci Qarabağ savaşında erməni əsirliyində olan azərbaycanlılara xüsusi amansızlıqla işgəncə verib. Həmin faktlar üzrə 2000-ci ildə Azərbaycanın Hərbi Prokurorluğunda cinayət işi başlanıb.

Bu il sentyabrın 27-də Vətən Müharibəsi başlayanda Azərbaycan Ordusu bir qrup erməni hərbçini əsir götürüb. Həmin əsirlərin içərisində Lüdviq Mkrtçyan da olub.

İstintaq tərəfindən dindirilən Lüdviq Mkrtçyan Birinci Qarabağ müharibəsində əsir götürülmüş azərbaycanlılara işgəncələr verdiyini etiraf edib. Hətta Birinci Qarabağ müharibəsində erməni əsirliyində olmuş və qaytarılmış bir neçə azərbaycanlı hərbçi də üzləşmə zamanı Lüdviq Mkrtçyanı tanıyıb. Hazırda Hərbi Prokurorluqda başlanmış cinayət işi üzrə zəruri-istintaq hərəkətləri davam etdirilir.

## Pakistan portalında Ermənistanın Qarabağda törətdiyi bəşəri cinayətlərlə bağlı məqalə dərc olunub

Pakistanın "globalnewspakistan.com" informasiya portalında Ermənistanın Qarabağda törətdiyi bəşəri cinayətlərlə bağlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, jurnalist Əli Zülfüqaroğlu və tədqiqatçı-ekspert Elnur Eltürkün həmmüəllifliyi ilə dərc olunan yazıda Vətən müharibəsi dönəmində Ermənistanın mülki əhaliyə qarşı törətdiyi terror aktlarından bəhs edilir. Eyni zamanda, Ermənistanın Azərbaycanın Gəncə, Bərdə və digər şəhərlərinə raket zərbələri endirməsi nəticəsində uşaqlar və qadınlar da daxil olmaqla, mülki əhalinin qətlə yetirilməsi, evlərin və infrastruktur obyektlərinin dağıdılması pakistanlı oxucuların diqqətinə çatdırılır. Həmçinin müharibə bitəndən, Ermənistan kapitulyasiyaya imza atandan sonrakı dönəmdə ermənilərin boşaltdıqları rayonlarda evləri yandırması, heyvanları vəhşicəsinə öldürməsi, meşələrə od vurması, talan etməsi, törədilən ekoloji terror ilə bağlı faktlara geniş yer verilir.




Yazıda Ermənistanın təcavüzü nəticəsində Qarabağda dünya və yerli əhəmiyyətli tarixi abidələrin, muzeylərin soyğuna məruz qalması, həmçinin infrastruktura ciddi zərər vurulması, məktəblərin, xəstəxanaların yerlə-yeksan edilməsi, yaşayış evlərinin sökülərək materiallarının Ermənistana daşındığı diqqətə çatdırılır. Həmçinin qeyd olunur ki, ilkin hesablamalara görə, Ermənistanın təcavüzü nəticəsində ölkəmizə dəyən maddi ziyanın məbləği 800 milyard dollardan çoxdur, bu rəqəm getdikcə artır və Ermənistanın təzminat ödəməlidir. "Bunlar təkcə Azərbaycana qarşı deyil, bəşəriyyətə qarşı yönəlmiş terror aktlarıdır. Bu gün dünyada çoxsaylı münaqişə ocaqları mövcuddur. Bu səbəbdən də Ermənistanın mülki əhaliyə və ekoloji mühitə qarşı törətdiyi bu terror aktları çox təhlükəli tendensiyadır. Ona görə də bu cür vəhşiliklərin davam etməməsi, digər yerlərdə də presedent yaratmaması üçün beynəlxalq ictimaiyyət, xüsusilə xarici media buna biganə qalmamalıdır. Bu hadisənin daha çox işıqlandırılmasına, həqiqətin dünya ictimaiyyətinə çatdırılmasına ciddi ehtiyac var", - deyə müəlliflər vurğulayıblar.

# XİN: YUNESKO mədəni irsin qorunması məsələsinin siyasiləşdirilməsinə yol verməməlidir



Azərbaycan tərəfi YUNESKO ilə əməkdaşlığa, tərəf çıxdığı konvensiyalardan irəli gələn vəzifələrin icrasına və xüsusilə də mədəni irsin qorunması ilə bağlı öhdəliklərinə hər zaman sadiqlik nümayiş etdirib. SİA-nın məlumatına görə, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin YUNESKO-nun Azərbaycana missiyasının göndərilməsi ilə bağlı YUNESKO-nun mətbuat açıqlamasına dair şərhində deyilir.

Bildirilri ki, ölkəmiz uzun illər ərzində həm Azərbaycanda, həm də qlobal miqyasda mədəni irsin bərpası və qorunması istiqamətində təşkilatın fəaliyyətinə ciddi töhfələr verib: "Azərbaycanda mədəni irsin qorunması dövlət siyasətinin vacib istiqamətlərindən biridir. Ölkəmizin Ümumdünya İrs Komitəsinin ötən il keçirilən sonuncu sessiyasına uğurla ev sahibliyi etməsi mədəni irsin qorunmasına Azərbaycanın verdiyi əhəmiyyətin, eyni zamanda üzv dövlətlərin Azərbaycana inam və etibarının yüksək ifadəsidir. Azərbaycan Respublikasının təşəbbüsü və dəstəyi ilə YUNESKO tərəfindən ilk dəfə olaraq "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması ilə bağlı Hərbi Bələdçi" adlı nəşrin ərsəyə gəlməsi ölkəmizin YUNESKO-nun dəyərlərinə sadiqliyinin bariz nümunəsidir.

Lakin təəssüflə qeyd etmək lazımdır ki, 30 il ərzində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və torpaqlarımızın işğalı zamanı mədəni irsimizin dağıdılması, mənimsənilməsi, mahiyyətinin dəyişdirilməsi, mədəni sərvətlərin ökəmizdən qeyri-qanuni çıxarılması kimi hərbi cinayətlərin araşdırılması məqsədilə YUNESKO-ya çağırışlarımıza laqeyd yanaşılıb və bu məsələ ilə bağlı YUNESKO Katibliyi qətiyyətlilik nümayiş etdirməmişdir.

YUNESKO tərəfindən Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarına missiyanın göndərilməsi təklifinin Azərbaycan tərəfindən nəzərdən keçirilməsi barədə təşkilata dəfələrlə məlumat verilib. Məsələ ilə bağlı vurğulanmalıdır ki, mədəni mülkiyyətimizə vurulmuş zərərin dəyərləndirilməsinə dair bölgəyə YUNESKO missiyasının təşkili zamanı bir sıra amillər, o cümlədən ərazidə təhlükəsizliyin təmin olunması, hava və çətin relyef şəraiti də nəzərə alınmalıdır. Məlum olduğu kimi, Azərbaycan əraziləri Ermənistan tərəfindən həm işğal müddətində minalanıb (hərbi əməliyyatların dayandırılması ilə bağlı 10 noyabr tarixli bəyanatdan etibarən 6 mülki şəxs və 6 hərbçi minaya düşərək həyatını itirib, 7 mülki şəxs və 14 hərbçi isə xəsarət alıb), həm də Ermənistan ordusu işğal edilmiş ərazilərimizdən geri çəkilərkən tarix və mədəniyyət abidələrinin ətrafını da minalayaraq ərazini təhlükəli bölgəyə çevirib.

İşğaldan azad edilən Azərbaycan torpaqlarında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən mədəni irsin ilkin monitorinqinə başlanılıb və ilkin monitorinqin nəticələri YUNESKO-ya rəsmi şəkildə təqdim olunub. Monitorinqin hesabatında, həmçinin vaxtilə Ermənistan tərəfindən işğal altında saxlanılan ərazilərimizdə bütün dini və mədəni abidələrimizin dağıdılması, o cümlədən məscidlərimizin təhqir edilməsini əks etdirən fotolar da yer alıb. Ümid edirik ki, sözügedən monitorinqin hesabatında əks olunan hərbi cinayətlərə YUNESKO səssiz qalmayacaq.

Hesab edirik ki, YUNESKO öz missiyasını müstəqil və obyektiv şəkildə yerinə yetirməli və mədəni irsin qorunması məsələsinin siyasiləşdirilməsinə yol verməməlidir. YUNESKO tərəfindən bu cür mətbuat açıqlamalarının verilməsi Azərbaycan ilə YUNESKO arasında mövcud olan əməkdaşlığın ruhuna uyğun gəlmir. Azərbaycan missiyanın təşkilinin təfərrüatlarını YUNESKO ilə müzakirə etmək üçün konstruktiv dialoqa açıqdır və YUNESKO ilə üzv dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmətə əsaslanan əməkdaşlığa hazır olduğunu bir daha bəyan edir".

# Vüqar Rəhimzadə: Prezidentimiz xalqın birmənalı dəstəklədiyi, etimad göstərdiyi alternativsiz Liderdir



"Möhtərəm Prezidentimiz İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olmaq üçün istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə düşünülmüş və məqsədyönlü siyasət həyata keçirərək Azərbaycanın timsalında "Güclü dövlət" konsepsiyasını reallaşdırmağa nail oldu. Son 17 ildə atılan addımların xronologiyasına diqqət yetirmək kifayətdir. Prezident İlham Əliyev bu müddətdə hər bir ölkənin inkişafında iqtisadi amilin rolunu önə çəkərək ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində yaradılan möhkəm təmələ yeni əlavələr etməklə Azərbaycanı dünya miqyasında iqtisadi möcüzələr, ən islahatçı ölkə kimi təqdim etdi. Neft-qaz gəlirlərinin idarə olunmasında şəffaflığın təminatı müasir iqtisadi sistemin yaradılmasını, cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatların həyata keçirilməsini şərtləndirdi. Dövlətimizin başçısı İlham Əliyev daim bəyan edir ki, zaman, dövr dəyişir. Qarşıya yeni vəzifələr qoyulur. Təbii ki, onların icrası islahatların dərinləşdirilməsini bir tələb kimi qarşıya qoyur. Azərbaycanın bir qayda olaraq mötəbər beynəlxalq maliyyə qurumlarının hesabatlarında da ən islahatçı ölkə kimi yerini möhkəmləndirməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistemli islahatların məntiqi nəticəsidir. Son 17 il bu məqama da işıq saldı ki, reallaşdırılan siyasətin mərkəzində vətəndaş amili dayanır. Məhz bu siyasətə sadiqliyin nəticəsidir ki, neft kapitalının insan kapitalına çevrilməsi bugünkü Azərbaycanın reallıqları sırasındandır". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında söyləyib.

V.Rəhimzadə bildirib ki, son 17 ildə Azərbayanın bütün sahələrdə qazandığı uğurlar bu fikri böyük inam və fəxrlə söyləməyə əsas verir ki, Prezident İlham Əliyev qurucu, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində dövlətin və xalqın maraqlarını ən ali məqsəd kimi qarşıya qoyan və bütün qüvvəsini bu vəzifələrin reallaşmasına səfərbər edən, milyonların sevgisini qazanan, etimad göstərdiyi alternativsiz Liderdir: "2003-cü ildən bu günə qədər keçirilən 2008, 2013 və 2018-ci illər prezident seçkilərində cənab İlham Əliyevin hər dəfə möhtəşəm qələbəsini təmin etməsi məhz bu etimadın göstəricisidir. Dövlətimizin başçısı 2018-ci ildəki qələbəsi ilə Azərbaycan üçün növbəti 7 ilin hədəflərini müəyyənləşdirdi. Təbii ki, qarşıya qoyulan məqsədlər sırasında gündən-günə artan gücümüz, yeganə problemimiz olan olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq əsasında ədalətli həlli, xalqımızın illərdir torpaq həsrətinə son qoyulması, ən başlıcası ulu öndər Heydər Əliyevin vəsiyyətinin yerinə yetirilməsi dayanırdı".

"Məhz son 17 ildə qazanılan uğurlar, Azərbaycan dövlətinin, möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təxribatına cavab olaraq "İrəli!" əmri əsasında bütün qüvvə və bacarığını səfərbər edən Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində xalqımızın milli qüruru özünə qayıtdı" söyləyən V.Rəhimzadə bildirib ki, Zəfər tarixini yazan cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən qalib Lider kimi adını əbədi olaraq tarixə yazdı: "Bu gün zəngin tarixə malik olması ilə daim qürur duyan Azərbaycan xalqı ona Zəfər Gününü yaşadan dövlətimizin başçısı İlham Əliyevin ətrafında yumruq kimi birləşib, son 17 ilin uğurlarına söykənərək qarşıdakı dövrün hədəflərinə doğru inamla addımlayır".

Baş redaktor bildirib ki, Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya cəbhəsində də uğurlarımızı şərtləndirir: "Əbəs yerə deyilmir ki, zaman hakim, tarix isə yaddaşdır. Möhtərəm İlham Əliyevin özünün də qeyd etdiyi kimi, Müzəffər Ali Baş Komandanımız nəyi nə zaman edəcəyini çox yaxşı bilir. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövlətini son 17 ildə daha möhtəşəm zirvələrə yüksəltməklə sözünün imzası qədər əhəmiyyətli olduğunu dünyaya nümayiş etdirən Prezident İlham Əliyevin 44 günlük İkinci Qarabağ müharibəsi dövründə 30-a yaxın dünyanın nüfuzlu agentlik və televiziya kanallarına müsahibələrinin birində jurnalistin "Tarixdə necə qalmaq istərdiniz" sualına cavabını bir daha xatırlatmaq istərdik. Prezident İlham Əliyev həmin cavabında bildirmişdir ki, mənim əsas amalım Azərbaycan xalqının etimadını doğrultmaq, bu vəzifədə olduğum bütün illər ərzində verdiyim vədləri yerinə yetirmək və ölkəni inkişaf yolu ilə aparmaq, onun ərazi bütövlüyünü təmin etməkdir: "Mənim rolumun gələcəkdə necə qiymətləndiriləcəyi isə artıq bizim nəyə nail olacağımızdan, Azərbaycan xalqının iradəsindən asılı olaraq müəyyən ediləcək. Ona görə düşünürəm ki, bu məsələni o adamların mülahizəsinə saxlamaq lazımdır ki, onların fikri məndən ötrü bu və ya digər qərarların, o cümlədən Dağlıq Qarabağ məsələsi ilə bağlı qərarların qəbul edilməsində həmişə əsas olub".

V.Rəhimzadə beynəlxalq səviyyədə də etiraf edilən bu fikirlər fonunda bildirib ki, dövlətimizin başçısı İlham Əliyevin hər bir vədinin arxasında konkret əməl dayanır: "Məhz buna görə də cənab Prezidentin verdiyi bütün vədlər gerçəkliyə çevrilir. Azərbaycanı qarşıdakı illərdə daha möhtəşəm uğurlar gözləyir. Möhtərəm Prezidentimizin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimiz sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl güşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcək".

# Hikmət Babaoğlu: Prezident İlham Əliyev böyük tarixi şəxsiyyət, böyük dövlət xadimi və böyük strateqdir



Milli dövlətçilik tariximizin inkişaf mərhələləri çoxəsrlik keçmişə dayanır və olduqca keşməkeşlidir. Ancaq bu tarixin elə mərhələləri var ki, onlar özündən əvvəlki ənənələri qorumaq və növbəti mərhələ üçün perspektivlər yaratmaq baxımından olduqca əhəmiyyətlidir və fövqəladə xarakter daşıyır. Əslində, dövlətçilik tariximizi davamlı edən və ardıcıllığını qoruyan da bu mühüm həlqələr və onu yaradan böyük dövlət xadimləridir. Müasir dövlətçilik tariximizdə isə bu uğuru təmin edən, sözün əsl mənasında, böyük dövlət xadimi, böyük tarixi şəxsiyyət və böyük strateq İlham Əliyevdir.

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Hikmət Babaoğlu bildirib ki, Prezident İlham Əliyev 2003-cü ildə hakimiyyətə gələndə ona qalan miras bir tərəfdən ictimai-siyasi sabitliyi təmin edilmiş, dövlət strukturları bərpa olunmuş Azərbaycan idisə, digər tərəfdən həm də məğlub edilmiş və torpaqlarının 20 faizi erməni işğalı altında olan, iqtisadiyyatının inkişafı və ordu quruculuğunun həyata keçirilməsi tələbi olan, bir milyondan çox qaçqın və məcburi köçkünün problemlərinin həll edilməsi zərurəti olan Azərbaycan idi. Bütün bu və digər çoxsaylı məsələlərlə bərabər sürətlə dəyişən və daim rəqabət halında olan dünya nizamında Azərbaycanın yerinin və rolunun zərurəti var idi. Yəni, istər daxili siyasətdə, istərsə də xarici siyasətdə elə strateji həmlələr etmək lazım idi ki, onlar nəticə etibarilə milli inkişafımıza və ərazi bütövlüyümüzün bərpa olunmasına gətirib çıxarsın. Bütün bunların hamısını edə bilmək isə mövcud qlobal və milli çağırışlar kontekstində, ikili standartların mövcud olduğu dünya nizamı, rəngli inqilablar erasında əslində bir möcüzə idi. Prezident İlham Əliyev bu möcüzəni yarada bildi. Dövlətimizin başçısı soyuqqanlı ağılla hələ də dərk edilməsi çətin olan bir tarixi zəfərə imza atdı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün dünyaya və dünya siyasətini müəyyən edən imperialist güc mərkəzlərinə, onların təzyiqlərinə rəğmən Qarabağı işğaldan azad etdi, ərazi bütövlüyümüz bərpa olundu. Ancaq məsələyə strateji təhlil kontekstində yanaşdıqda isə diqqəti çəkən əsas məsələ budur ki, bütün bu zəfərləri əldə etmək üçün çox dəqiq hesablanmış dərin hərbi-siyasi, diplomatik və sosial-iqtisadi planlaşdırma müəyyənləşdirilib və zərgər dəqiqliyi ilə həyata keçirilib. Bu ardıcıllıqda önə çıxan əsas istiqamətlər isə müstəqil iqtisadi siyasət həyata keçirməklə siyasi müstəqilliyi təmin etmək, iqtisadi resursların səmərəliliyini təmin etməklə iqtisadiyyatla sosial təminat arasında düzgün proporsional balans yaratmaq, həmçinin ölkədə yeni, innovativ sənaye istiqamətləri formalaşdırmaq, ordu quruculuğu və hərbi sənayenin yaradılmasına xüsusi diqqət ayırmaq və bütün bunlara paralel olaraq milli hisslərə və vətənpərvərlik ruhuna sahib olan yeni nəsil tərbiyə etmək idi. Hazırkı qlobal şərtlər və təzyiqlər içərisində bunların hər birini, xüsusilə sonuncunu etmək olduqca müşkül bir vəzifə idi. Çünki müasir internet resursları və onların yaratdığı virtual reallıqlar çərçivəsində milli ruhu və milli identikliyi qoruyub saxlaya bilmək ən mühüm çağırışlardan biri idi.

Deputat diqqətə çatdırıb ki, yuxarıda sadalanan ayrı-ayrı istiqamətlərin hər biri üzrə xüsusi dövlət proqramları qəbul edildi və uğurla onların icrasına nail olundu. Nəticə etibarilə, elə indidən heyrətlə qarşılanan və bunların necə baş verdiyinin təcrübə kimi öyrənilməsi vacib hesab edilən böyük tarixi uğurlar əldə edildi. Şübhəsiz ki, bütün bu nailiyyətlərimizin baş tacı Vətən müharibəsində əldə etdiyimiz tarixi hərbi-siyasi qələbəmizdir. Hər nə qədər Azərbaycan Prezidenti İlham Əliyev bu qələbənin birinci qəhrəmanı kimi Azərbaycan əsgərini göstərsə də, hamımız bilirik ki, milli güc, yalnız milli lider tərəfindən təşkilatlandırılanda və idarə olunanda həqiqi milli gücə çevrilir. Ona görə də Prezident İlham Əliyev, sözün əsl mənasında, xalqımızın milli qəhrəmanı, böyük tarixi şəxsiyyət və böyük dövlət xadimidir.

# 200 ildən sonra yazılmış əbədi tarixi gerçəklik - İlham Əliyev, qalibiyyət fenomeni!

## Mütərəqqi dövlət xadimi: Prezidentin üzərinə düşən missiyanın mühüm xarakterləri

***Artıq əminliklə vurğulaya bilərik ki, müasir və müstəqil Azərbaycan tarixinin yeni mərhələsi, eləcə də yeni əsrimizin yeni liderlik dövrü dövlət xadimi İlham Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq İlham Heydər oğlu Əliyev adı və sanı ilə xalqın qalib simvoluna, mütərəqqi əməlləri isə qürur rəmzinə çevrilmişdir. Bütün bu həqiqətlərin təməlində isə həyat və fəaliyyətini doğma xalqına və torpağına sonsuz məhəbbət və sədaqət meyarları dayanmaqdadır. Bu məhrələlərin reallaşması isə söz yox ki, heç də asan başa gəlməmişdir. Çünki o da sirr deyil ki, dövlətçilik, milli-mənəvi dəyər ənənələrinin və demokratik cəmiyyətin bərqərar olmasında, ölkənin qalib gücə çevrilməsində şəxsiyyətin rolu böyükdür.***





***Bəhruz QULİYEV,***
***"SƏS" qəzetinin baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru***

Dahi Öndər Heydər Əliyev tarixi müraciətində peyğəmbərcəsinə vurğulamışdı ki: **"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"**

Bütövlükdə isə, İlham Əliyevin fəaliyyəti istiqamətindəki danılmaz gerçəkliklərə sistemli olaraq nəzər salsaq biz bir çox keçidlərin, mərhələlərin şahidlərinə çevrilmiş olarıq. Bu mərhələlərin uğurlu keçididir ki, artıq Onun barəsində danışarkən, düşünərkən, yazarkən biz müdrik dövlət xadimi ifadəsini işlədirik. Bu ifadə İlham Əliyevin üzərinə düşən, ardıcıllığı ilə seçilən missiyanın mühüm xarakterlərinin ilk göstəricilərindədir. Söz yox ki, bu missiyanın təməlini Ulu Öndər Heydər Əliyev öz tarixi müraciətində qoymuşdu. Heydər Əliyev siyasi məktəbinin varisi və layiqli davamçısı Prezident İlham Əliyevin hələ 2003-cü ildə ölkə başçısı kimi səlahiyyətlərinin icrasına başladığı ilk gündən hakimiyyəti xalqa xidmət vasitəsi hesab etdiyini bildirməsi varisliyin layiqli davamının siqnalı idi. Onun Ümummilli Lider Heydər Əliyev siyasi xəttini yüksək səviyyədə davam və daha da inkişaf etdirməsi müasir dövrdə Azərbaycanın dinamik tərəqqisini şərtləndirən mühüm amil kimi çıxış edir. Ənənəyə sadiq qalaraq, yeni iş yerləri açılır, əhalinin sosial rifahı yüksəlir, dövlət büdcəsinin gəlirləri artırılır, Azərbaycan idxalçı ölkədən ixrac edən ölkəyə çevrilməyə başlayır. Regionların inkişafı, durmadan aparılan abadlıq və yenidənqurma işləri, təhsil sistemindəki islahatların uğurlu nəticələri, neft bazarındakı üstün mövqe, səhiyyə sisteminin müasir standartlara cavab verməsi, turizmin və idmanın inkişafı Prezident İlham Əliyevi Azərbaycanda alternativsiz liderə, Cənubi Qafqaz regionunda isə böyük siyasi və dövlət xadiminə çevirir.

Məhz bu müddət ərzində Prezident İlham Əliyevin bir dövlət xadimi kontekstində genişmiqyaslı və uğurlu fəaliyyəti göstərir ki, O öz qarşısına bütünlüklə Azərbaycana, xalqının sabahına həsr edilən hakimiyyət yolunu, zəfər və şərəf yolunu ləyaqətlə davam etdirmək məqsədini qoyub. Əbəs deyildi ki, Azərbaycan Heydər Əliyev 2003-cü il prezident seçkiləri dövründə cənab İlham Əliyevi şəxsiyyət və dövlət xadimi kimi xarakterizə edərkən deyirdi: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir siyasətçidir".

Yaxud, Dahi Öndər Heydər Əliyevin peyğəmbərcəsinə "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" kəlamı da qeyd edilən fikirləri özündə cəmləşdirib və bu gün biz bütün bunların məntiqi, əməli nəticələrini görməkdə, şahidi olmaqdayıq.

Bəli, "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", ifadəsi İlham Əliyevin bütövlükdə xarakter cizgilərini, onun imkan və potensialını, böyük qabiliyyət və bacarığını ifadə edirdi. Yeni dövrün görkəmli siyasətçisi və dövlət xadimi kimi möhtərəm Prezident İlham Əliyev üçün böyük siyasətdə, beynəlxalq münasibətlərdə, ölkədaxili məsələlərin həllində, dövlət idarəçiliyində Heydər Əliyevin siyasi təlimi möhkəm təməl, ən etibarlı bünövrədir. Bü gün İlham Əliyev hakimiyyəti möhkəm, sarsılmaz dövlətçilik ucalığı üzərində dayanmaqdadır. O cümlədən, qlobal dünyamızda baş verən hadisələrə və proseslərə tarixi baxışla bir sırada dünyanın hazırkı reallıqlarının və yeni dövlətçilik təfəkkürünün işığında yanaşmaq, qiymət vermək və bütün bunlara uyğun olaraq əsaslı qərarlar qəbul etmək bilavasitə İlham Əliyevin dövlət xadimi olaraq, həm də dövləti idarəetməsinin əhəmiyyətli əsasını təşkil edir.

Artıq bu gün Azərbaycan regionun lider dövləti olaraq, strateji məsələlərin həllində müstəqil və prinsipial mövqe nümayiş etdirməklə enerji təhlükəsizliyi sahəsində dünya birliyinin vacib partnyoruna çevrilib. Sosial-iqtisadi, ictimai-siyasi və humanitar, təhsil, səhiyyə və s. çoxşaxəli sahələri əhatə edən bir çox dövlət proqramları uğurla həyata keçirildi, ölkədə vətəndaş cəmiyyəti və hüquqi dövlətin əsas dayaqları daha da möhkəmləndi. Beləliklə, ölkəmizdə 17 il ərzində əldə olunmuş böyük uğurların təməlində Prezident İlham Əliyevin mütərəqqi yolu dayanır.

Daha bir xüsusi məqamı qeyd etmək yerinə düşərdi. Belə ki, Prezident İlham Əliyevin neftdən gələn gəlirlərin insan kapitalına çevrilməsi ideyası və bu fenomenal ideyanın bu gün çox məharətlə reallaşdırılması faktı Azərbaycanın gələcək inkişaf strategiyasını müəyyənləşdirən mühüm faktorlardan biridir. Çünki qarşıda qoyulan bütün məqsədlərə çatmaq üçün Prezident İlham Əliyevin daxili siyasətində regionların sosial-iqtisadi inkişafı mühüm yer tuturdu və bu istiqamətdə də görülən işlər Onun alternativsiz dövlət xadimi olaraq bütün uğurlarını səciyyələndirməkdədir. Heç şübhəsiz ki, qeyd edilən strateji məqsədlərin həyata keçirilməsinə yönəldilən sosial-iqtisadi siyasətin ana xəttini əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi təşkil edirdi ki, artıq bu yolun da mühüm hissəsi keçilib, qarşıda isə daha nəhəng işlər dayanmaqdadır...

Lakin növbəti bir əhəmiyyətli məqam xarici siyasətin qurulması və uğurla davam etdirilməsi ilə bağlıdır. Sirr deyil ki, Azərbaycanın düzgün və tarazlaşdırılmış xarici siyasət aparması respublikamızla həm qonşu dövlətlər, həm də dünyanın bütün ölkələri arasında mehriban dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri yaradıb. Məhz bunun nəticəsində ölkəmizdə transmilli iqtisadi layihələr uğurla həyata keçirilir, milli mənafelərimiz beynəlxalq aləmdə uğurla qorunur və ölkəmiz ən nüfuzlu beynəlxalq təşkilatlarda ləyaqətlə təmsil olunur.



Hələ illər öncə İlham Əliyev dövlət xadimi olaraq Azərbaycanın Ermənistanın işğalçılıq syatəsi ilə barışmayacağını bəyan edir, torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmayacağını vurğulayır, haqq və ədalət səsimizi çoxsaylı beynəlxalq sammit və konfranslarda bəyanatlarla ucaldırdı. Əgər bu gün beynəlxalq aləmin mühüm hissəsi özünü Azərbaycanın yanında gördüyünü qeyd edirsə, bunun kökündə düzgün xarici siyasət reallığının dayanması şəksizdir. Daha dəqiq desək, məqsədyönlü xarici siyasət nəticəsində Azərbaycan dünya birliyinin layiqli üzvünə və regionun liderinə çevrilib və bunun daha geniş izahı məqalənin aşağı hissələrində veriləcək. Ancaq qarşıda Azərbaycan xalqının, dövlətinin bir nömrəli prob-

# 200 ildən sonra yazılmış əbədi tarixi gerçəklik - İlham Əliyev, qalibiyyət fenomeni!

## Mütərəqqi dövlət xadimi: Prezidentin üzərinə düşən missiyanın mühüm xarakterləri

lemi qalmaqdaydı və bu problemin könündən həll olunması vacibliyi özünü daha çox göstərməyə başlamışdı.

### Ali Baş Komandan: Qalib Sərkərdə strategiyasının əməli sübutu - qalibiyyətə aparan möhtəşəm yol

Qeyd etdiyimiz kimi, Azərbaycanın digər sahələrdə əldə etdiyi uğur və qələbələri ölkəmizin iqtisadi qüdrətini artırmaqla yanaşı, həm də Ordumuzun güclənməsinə, peşəkar ordular sırasında yer almasına geniş şərait yaradırdı. Bu xüsusda, Ordu quruculuğu prosesinin aparılmasında da Prezident İlham Əliyevin Ali Baş Komandan olaraq bilavasitə iştirakı öz labüdlüyünü qoruyub-saxlamaqda idi. Ermənistanın işğalçılıq siyasəti, torpaqlarımızı sülh yolu ilə təhvil vermək istəməməsi isə həmin labüdlüyü daha da artırdı. Nəticədə düşmənin silahlı təxribatlarına birdəfəli cavabın verilməsi zamanı çatdı. Bu qalibiyyətə qədər gedən hərbi yol da asan başa gəlməmişdi...







Azərbaycanın hərbi sənaye potensialının artırılması, ildən-ilə çoxsaylı və böyük miqyaslı hərbi təlimlərin həyata keçirilməsi, silah-sursat, hərbi texnika, təchizat və avadanlıqların ən masir standartlar səviyyəsinə çatdırılması, dost və qardaş ölkə - Türkiyə ilə strateji bağların möhkəmləndirilməsi, dünyanın hərbi potensialı güclü olan ölkələri ilə sıx əlaqələrin qurulması, bunun ardınca isə dəstəyin alınması, habelə milli ruhun, döyüş ruhunun anbaan artırılması - qeyd edilən hər bir məqamların arxasında nə qədər nəhəng siyasətin dayandığını ortaya qoymaqdadır. Cənab Ali Baş Komandan bilirdi ki, düşmən sakit dayanmayacaq və onun məhv edilməsi üçün hər an hazır olmaq zamanın reallığına çevirilmişdi. Azərbaycan heç vaxt işğal faltı ilə barışmayacaqdı və bu tarix - işğaldan azad olunma tarixinin başlanğıc nöqtəsi 2020-ci il, 27 sentyabr tarixinə dəng gəldi. Bu mənadan da çıxış edərək bildirək ki, cənab İlham Əliyevin 17 illik hakimiyyəti dövründə həyata keçirdiyi son dərəcədə müdrik, uzaqgörən, balanslaşdırılmış siyasət nəticəsində işğalçı Ermənistanın, mənfur düşmənin bu illər ərzində sinsi-sinsi həyata keçirdikləri təcavüzkar, məkrli planları alt-üst oldu. Bu baxımdan, İlham Əliyevin Qalib Sərkərdəlik fenomeni də həmin tarixdən başlanıldı. Prezident İlham Əliyev hələ Rusiyada dünyanın maliyyə və siyasi elitasının, beyin mərkəzlərinin toplaşdığı tədbirdə “Qarabağ Azərbaycandır və nida işarəsi!” deyəndə işğalçı Ermənistana və beynəlxalq aləmə mesajını verilmişdi. Hər zaman verdiyi vədə sadiq qalan dövlət başçımız, bu dəfə də vədinə əməl etdi, düşmən caynağından azad edilən torpaqlarımıza Qalib, Müzəffər Sərkərdə kimi qədəm qoydu.

Bu xüsusda, bəzi mühüm nüanslara diqqət yetirək. 44 günlük zəfər yürüşündə döyüşlərin aparılması, taktikaların və strategiyaların müəyyən edilməsi, ordu birləşmələrinin hərəkət trayektoriyaları, əməliyyatların hazırlanması və s. tərtibi planlar birbaşa Ali Baş Komandan cənab İlham Əliyevin nəzarəti altında işlənilir və həyata keçirilirdi. O, Ordunun başında dayanan Sərkərdə olaraq düşmənə vurulan ağır, sarsıdıcı zərbələrin hər birində mühüm missiyasını həyata keçirməklə yanaşı, həm də diplomatik fəaliyyətini davam etdirdi, o cümlədən, dünyanın aparıcı nüfuzlu media qurumlarına Azərbaycanın apardığı haqq-ədalət işini çatdırdı. Bütün bu kimi ağır, məsuliyyətli işlərin, siyasətin öhdəsindən isə yalnız qətiyyətli, dəmir iradəli lider, böyük strateq gələ bilərdi.

Söz yox ki, qələbəyə doğru atılan addımların hər birindən sonra növbəti atılacaq addımlar, qərarlar da düşünülürdü və bunların hər birinin yükü Qalib Sərkərdənin - Ali Baş Komandan cənab İlham Əliyevin möhkəm çiyinlərində dayanırdı.

Biz, tarixi qələbəmizdən sonra Onun azad olunmuş ərazilərimizə səfərlərini xatırlaya və orada verdiyi bəyanatlarını da vurğulaya bilərik. Cənab İlham Əliyev “Mən bura Ordum ilə gəlmişəm” ifadəsini bəyan etməsi ilə düşmənə mesaj verdi ki, artıq güclü, qüdrətli Azərbaycan Ordusunun qarşını heç bir cəhdləri ilə ala bilmək mümkün deyil. 30 il boyunca dağıdılmış, viran qoyulmuş, talan edilmiş ərazilərimizin qısa müddətdə bərpası üçün də mühüm qərarlar verən cənab Ali Baş Komandan dünyaya onu da mesaj olaraq çatdırdı ki, Azərbacan xalqı və dövləti bütün çətinliklərdən, sınaqlardan qalib çıxmaq əzmindədir.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuliyə, Cəbrayıla səfəri, min illərin şahidi Xudafərin körpüsünə baş çəkməsi, Ağdam şəhərinə gedərək, dağıdılmış məscidi ziyarət etməsi də möhtəşəm Qələbəmizin nidası oldu. Qalib Sərkədəmizin və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın düşmən tapdağından azad edilən torpaqlara səfəri zamanı bu ərazilərdə yolboyu mənfur ermənilərin yurdumuza qarşı vəhşiliklərinə, vandallıqlarına bir daha şahidlik etdilər. Çəkilən videomateriallar bir daha bütün dünyaya Azərbaycan xalqının azğın, qana susamış düşmənlə üz-üzə olduğunu təsdiq etdi: “Baxın, baxın Cəbrayıl şəhərini nə günə salıb mənfur düşmən. Bütün dünya bunu görsün, görsün və bilsin, hansı yaramaz düşmənlə biz üz-üzəyik. Bütün binaları dağıdıblar, talan ediblər. Onların məqsədi var idi ki, heç vaxt bundan sonra burada azərbaycanlı insanlar yaşamasınlar. Yaşayacağıq, əbədi yaşayacağıq! Hamısını bərpa edəcəyik, hamısını. Baxın nə günə qoyub. 30 il ərzində bu barədə hansısa bir beynəlxalq qurum bir məsələ qaldırıbmı? Burada monitorinq aparılıbmı? İndi bütün dünya görəcək. nə günə salıblar Cəbrayıl şəhərini.”

Ali Baş Komandanımız işğalçı, faşist ideologiyasından bəhrələnən ermənilərin bu vəhşiliklərin, Kəlbəcərdə törətdikləri yanğınların cavabının veriləcəyini dedi: “Mən demişəm, bir daha demək istəyirəm, beynəlxalq qurumlar, ekspertlər gələcək, bütün ziyan hesablanacaq, 30 il ərzində bizə vurulmuş zərər nəzərə alınacaq və onlara qarşı təzminat iddiası qaldırılacaq. Bugünlərdə Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək. Onlar düşünürdülər ki, bu dağıntılardan sonra heç vaxt Azərbaycan əhalisi bura qayıtmayacaq. O məqsədlə buraları dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq, durmuşuq burda, öz doğma torpaqlarımızda, Cəbrayıl şəhərində. Bütün buraları yenidən bərpa edəcəyik”.

*Ardı Səh. 10*

# 200 ildən sonra yazılmış əbədi tarixi gerçəklik - İlham Əliyev, qalibiyyət fenomeni!

*Mütərəqqi dövlət xadimi: Prezidentin üzərinə düşən missiyanın mühüm xarakterləri*

Əvvəli Səh. 9

Müzəffər Sərkərdəmiz işğaldan azad edilən doğma torpaqlarımıza, Cəbrayıla, Füzuliyə, Ağdama qalibiyyət səfəri edərək, Füzuli-Şuşa avtomobil yolunun çəkilişinə göstəriş verərərək bu haqq nidasının rəsmiləşdirilməsinin xoş müjdəsini verdi, bir daha qorxaq düşmənə bəyan etdi ki, Qarabağ Azərbaycandır!



### Müzəffər Lideriyin ali təcəssümü: **Ata vəsiyyətini yerinə yetirən qürurlu Övlad!**

Beləliklə, Prezident İlham Əliyev xalqımızın ən böyük arzularını gerçəkləşdirən şəxsiyyət kimi, eyni zamanda Müzəffər Liderlik adını əbədi olaraq tarixə yazdı.

O, son 200 ildə tarixi torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum edilmiş Azərbaycan xalqının milli mənliyini, mənəvi ruhunu və siyasi gücünü özünə qaytardı, tarixi ədaləti bərpa etdi. Çünki Qarabağ zəfərimizə qədər Azərbaycana qarşı bir çox ədalətsizliklər baş vermişdi. Tariximizin ən sarsıntılı sazişi olan Türkmənçay sazişindən sonra (1828-ci il) tarixi torpaqlarımız mərhələli şəkildə zorla əlimizdən alınaraq düşmənlər tərəfindən ilhaq olundu. Bu, bir tərəfdən milli dövlətçiliyimizə gedən yolda ciddi əngəllər yaratmış, digər tərəfdən Azərbaycanı faktiki olaraq iki hissəyə ayırmışdır. Yüz illər boyu davam edən bu proses, min illər boyu mövcud olan dövlət sərhədlərimizin kiçilməsinə səbəb oldu. Bu milli faciə təkcə torpaqlarımızın itirilməsi ilə deyil, xalqımız arasında olduqca mənəvi-psixoloji deformasiyaya da səbəb olmuşdur. O da faktıdr ki, istər çar Rusiyası, istərsə də bolşevik Rusiyasının işğalı dövründə bizə məcburən diqtə edilən siyasi reallıqları qəbul etməyə məkum edilmişdik. XX əsrin 90-cı illərində müstəqilliyimizin yenidən bərpa olunması, mill kimlik şüurumuzun güclənməsinə, dövlətçilik ənənələrimizin yenidən inkişaf etdirilməsi üçün bizə geniş imkanlar yaratdı. Məhz bu tarixi həqiqətləri incələdikdən sonra vurğulaya bilərik ki, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin ardıcıl və uğurlu siyasəti nəticəsində dövlətçilik ənənələrimiz yenidən dirçəldi və inkişaf etməyə başladı və eyni zamanda, bu gün Azərbaycan Müzəffər Lider İlham Əliyevin sayəsində dünyada qalibiyyət və zəfərlər yazan ölkə olaraq tanınmaqdadır.



Qələbələrimizin əsas möhürü isə qədim mədəniyyət beşiyimiz olan Şuşa şəhəri oldu. Yeri gəlmişkən, xatırlaya bilərik ki, Prezident İlham Əliyev də müsahibələrinin birində bəyan etmişdi ki, Şuşasız bizim işimiz yarımçıq olar. Məhz qədim Azərbaycan şəhəri olan Şuşa mədəniyyət məbədimiz, musiqi beşiyimizdir. Şuşa bizim qürur rəmzimiz, milli kimliyimiz, qeyrət qalamız deməkdir. Azərbaycanlılar Şuşanı müqəddəs sayır və ona görə bu şəhərin işğal altında qalması hər birimizin yarası idi.

Noyabrın 8-də, 28 illik həsrətdən sonra Qarabağın mirvarisi Şuşanın rəşadətli Ordumuz tərəfindən işğaldan azad edilməsi ikinci Qarabağ müharibəsində Azərbaycanın ən mühüm qələbələrindən biri oldu. Müharibədə asan qələbə olmur. Hər bir zəfərdə şəhid qanı var. Hər bir şəhər və kəndimiz əsgərlərimizin, zabitlərimizin, gizirlərimizin qanının axması hesabına azad olunub. Uca dağların, keçilməz qayaların zirvəsində yerləşən Şuşanın azad edilməsi isə göstərdi ki, Azərbaycan əsgərinin qarşısında işğalçı ordunun tab gətirə bilməsi mümkünsüzdür. Şuşanın alınması ilə əsgərlərimiz düşmənin mümkün saymadığını reallığa çevirdilər, hərb elminin yeni səhifəsini yazdılar, Azərbaycanın hərb tarixini şərəfləndirdilər. Tarixə səsalan Şuşa döyüşünün Müzəffət Sərkərdəsi isə Ali Baş Komandan İlham Əliyevdir. Artıq Azərbaycan Prezidentinin adı çoxsaylı möhtəşəm uğurlarla yanaşı, tariximizə həm də Şuşanı işğaldan azad edən lider kimi həkk olunub. Şuşanı azad etməklə İlham Əliyev bütün xalqımızın nisgilinə son qoydu. Şuşanın işğaldan azad edilməsi ilə möhtərəm İlham Əliyev Azərbaycan tarixinin yeni şərəfli səhifəsini yazdı.

Ötən 44 gündə Ermənistan rəhbərliyinin və erməni lobbisinin fikirləşdiyinin tamamilə əksi olan proseslər baş verdi. Cənab İlham Əliyev sübut etdi ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan, torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizədən saxlaya bilməz. Bu dövrdə Prezident İlham Əliyev çox təzyiqlərlə üzləşdi. Lakin dövlətimizin rəhbəri onların hamısına qətiyyətlə, cəsarətlə sinə gərdi. İlham Əliyev siyasi peşəkarlıqla Azərbaycana qarşı beynəlxalq miqyasda diplomatik cəbhənin formalaşmasının qarşısını aldı. Və bütün bunların fonunda Qarabağ cəbhəsində Azərbaycan Ermənistanı cəzalandırdı.

Şuşamızın işğaldan azad olunması münasibəti ilə Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edən cənab İlham Əliyev həm də ata vəsiyyətini yerinə yetirdiyini qürurla, şərəflə vurğuladı. Bu, həm də belə bir qənaətə gələn həqiqətdir ki, Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev zamanında işağl altındakı torpaqlarımızın, xüsusilə də Şuşamızın azad olunmasında siyasi varisi cənab İlham Əliyevin möhtəşəm yer alacağını görürdü. Uzaqgörən və əbədi liderimizin Şuşa vəsiyyəti də onun azad olunmasından sonra xalqımıza çatdırıldı. Həqiqətən də bu böyük, nəhəng bir tarixi hadisə oldu və bu hadisənin canlı şahidləri olaraq bizlər nə qədər şərəfli tarixi dövrü yaşamağımızdan hədsiz qürur hissi duymaqdayıq. Bu hiss ölçüyəgəlməz dərəcədə nəhəngdir!



### Tükənməz etimad: **Vahidlik və birlik ilə qələbəni qazanan Lider-Xalq gerçəkliyi!**

Noyabrın 10-da isə Azərbaycan xalqı gözlədiyi müjdəni aldı. Gecə saatlarında xalqa müraciət edən müzəffər Ali Baş Komandan İlham Əliyev şanlı Qələbəmizin - Ermənistanın təslim olmasının müjdəsini verdi. Böyük Qələbə xəbərini xalqımız son dərəcə böyük coşqu ilə qarşıladı. Səhər saatlarından başlayaraq Bakının, ölkəmizin və bütün şəhər və rayonların küçə və meydanlarına, parklarına axışan böyüklü-kiçikli milyonlarla insanın bayram şənliyi axşama qədər davam etdi. Bu, xalq-hakimiyyət birliyinin, vəhdaniyyətinin, sarsılmazlığının və qarşılıqlı inamın, etibarın, etimadın təntənəsi idi. Bu gün bütün xalqımız, bu müqəddəs savaşın önündə gedən, Vətən uğrunda canını fəda etməkdən çəkinməyən əsgər və zabitlərimizlə fəxr edir. Azərbaycan xalqı Prezidentinə, Dövlətinə, Ordusuna güvənir.

Xalq, Prezident və Ordu birliyi Vətən müharibəsində həlledici rol oynadığından bu amil daim hörmət və ehtiramla yada salınır, anılır, xatırlanır. Məhz Qalib Sərkərdəmizə, Müzəffər Ali Komandanımıza olan tükənməz etimadın nəticəsidir ki, Ordumuza böyük məbləğdə yardım göstərənlərdən tutmuş, təqaüdünü Orduya yardım fonduna keçirən ağsaqqal, sadə insanlar 44 gün ərzində növbəyə dayandılar. Düzdür, Azərbaycan dövləti bütün mənalarda Ordunu tam şəkildə təchiz edirdi, amma xalq da bu missiyada öz yerini tutmaqla vətəndaşlıq məsuliyyəti ilə çıxış etməklə bundan qürur duyurdu. Məhz bu mənada Xalqımız, Müzəffər Ali Baş Komandan və Azərbaycan Ordusu ən yüksək titullara, ən yüksək təriflərə layiqdir. Bundan sonra yüz illər ötsə belə yenə də bu üç əsas faktor haqqında həmişə ən xoş sözləri yazanlar, deyənlər olacaq, çünki bu qürur tariximizin bir parçasıdır.

Hesab edirəm ki, xalqın təşəbbüsü ilə dövlət tərəfindən müharibəni qələbə ilə tamamlayan ordunun müzəffər Ali Baş Komandanı İlham Əliyevə "Azərbaycanın Milli Qəhrəmanı", "Vətən müharibəsi qəhrəmanı" adı verilməlidir. Hətta deyərdim ki, Azərbaycan dövləti tərəfindən "Xalq Qəhrəmanı" xüsusi mükafatı təsis olunmalıdır və bu ada Azərbaycan xalqı və dövləti qarşısında müstəsna xidmətlərinə görə ilk olaraq da cənab İlham Əliyev layiq görülməlidir. Çünki dövlət başçısı bu xüsusi mükafata layiq olan şəxsiyyətdir. Xalq tərəfindən cənab Prezidentə istər pandemiya dövründə olsun, istərsə də 44 günlük Vətən müharibəsi dövründə saysız-hesabsız müraciətlər gəlirdi və gəlməkdədir, hər bir müraciətdə də ölkə başçısının gördüyü işlər təqdirəlayiq hal kimi qiymətləndirilir. Bunların hər biri göstərir ki, xalq Prezidentinə etimad edir və Onu öz Lideri, Qəhrəmanı kimi görür.

Məqaləmin sonunda isə daha bir mühüm faktora toxunmaq istərdim. Dekabrın 24-də cənab Prezident, Ali Baş Komandan, Müzəffər Sərkərdəmiz İlham Əliyevin doğum günüdür və biz xoşbəxt xalqıq ki, belə bir mötəbər günü vahid şəkildə qeyd etmək ərəfəsindəyik - 200 ildən sonra qalibiyyət simvolunu müqəddəs Azərbaycanımızın şərəf lövhəsinə yazmağa qadir olan Liderimiz iki möhtəşəm tarixi xalqı ilə birlikdə yaşayır - Qarabağ zəfərini və doğum gününü! Mən də fürsətdən istifadə edərək, bu tarixlərə şahidlik etdiyim üçün hədsiz qürur hissi ilə deyirəm: Qələbəniz və doğum gününüz mübarək, cənab Prezident, Müzəffər Ali Baş Komandanımız!

# Sevinc Fətəliyeva: “Erməni havadarlarının Türkiyə və Azərbaycana yalnız böhtan atmağa gücü çatır”



***“A**zərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində hər zaman beynəlxalq hüquqa istinad edib. Təcavüzkar Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində münaqişə sülh yolu ilə həll edilmədi, bu ölkənin hakimiyyəti danışıqlar prosesini pozdu. Bu səbəbdən Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini öz gücünə icra etdi”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.*

Sevinc Fətəliyeva bildirib ki, Azərbaycan 44 günlük Vətən müharibəsi nəticəsində özünün ərazi bütövlüyünü təmin etdi. Bu məsələdə ölkəmiz beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə uyğun olaraq addım atıb. Bununla da, Azərbaycanın haqq işi qələbə ilə nəticələndi.

Millət vəkilinin fikrincə, Azərbaycanın beynəlxalq hüquq normaları əsasında öz ərazi bütövlüyünü bərpa etməsi işğalçı Ermənistanın havadarlarını ciddi şəkildə narahat edir. Onun sözlərinə görə, müharibənin gedişində ermənilərə gizli yolla hərbi yardım verilməsi də işğalçılara kömək etmədi. Azərbaycan Ordusu işğalçı ordunu və ona göndərilən silah-sursatı darmadağın etdi. Ermənistan kapitulyasiya aktını imzalasa da, onun havadarları, Avropadakı erməni lobbisi və diasporu öz təxribatçı əməllərindən əl çəkmirlər. Belə ki, Fransa parlamentinin ardınca Belçika Nümayəndələr Palatasının da “Dağlıq Qarabağ münaqişəsinin davamlı həlli və atəşkəsin əldə olunması üçün Belçikanın və beynəlxalq qurumların təşəbbüslərinə dəstək” adlı qətnamə qəbul etməsi buna sübutdur. Bu sənəd beynəlxalq hüquqa tamamilə ziddir, Azərbaycana və Türkiyəyə qarşı qərəzli addımdır.

Sevinc Fətəliyeva təəssüflə qeyd edib ki, belə sənədlərin qəbulu Avropada demokratik dəyərlərin aşınmaya məruz qaldığını göstərir: “Əslində, belə bir sənədin qəbul olunması Azərbaycanın haqq işinə heç bir təsir göstərməyə iqtidarında deyil. Artıq üçtərəfli bəyanata uyğun olaraq razılaşmalar həyata keçirilir. Ermənistan öz məğlubiyyətini etiraf edib. Bunun fonunda ermənidən çox erməni olmaq istəyən Avropa parlamentarilərinin məqsədi nədir? Bu tipli qərəzli sənədlər nəyə xidmət edir? Əlbəttə ki, sülhə və sabitliyə xidmət etmir. Məqsəd yenidən gərginlik yaratmaq, məğlub olmuş işğalçılara hansısa dəstək verməkdir. Digər tərəfdən, Türkiyəyə və Azərbaycana atılan böhtanlar qəbulolunmazdır. Türkiyə regionun ən böyük dövlətlərindən biri kimi açıq şəkildə haqq və ədalətin yanında oldu, Azərbaycana siyasi və mənəvi dəstək verdi. Türkiyənin bu dəstəyinin qarşısında üçüncü ölkələr Azərbaycana qarşı hərbi əməliyyatlara qoşulmağa cürət etmədi. Belə olan təqdirdə, erməni havadarlarının Türkiyə və Azərbaycana yalnız böhtan atmağa gücü çatır. Bu cür böhtanlar isə bizi haqq yolumuzdan döndərə bilməz. Qeyd edim ki, həm Azərbaycan, həm də Türkiyə rəsmi şəkildə Belçikaya etiraz edib.

Ümid edirik ki, Belçika hökuməti parlamentin səhvini təkrarlamayacaq, dövlətlətimiz arasında beynəlxalq hüquq çərçivəsində əməkdaşlığımız davam edəcək.

Belçikanın, eləcə də Niderland parlamentarilərinin belə bir ədalətsiz mövqe nümayiş etdirmələri onlar üçün hüquq və həqiqət deyil, müəyyən maraqların mövcudluğu və bu maraqlar üzərindən hərəkət etmələrini təsdiq edir. Beynəlxalq hüquq və ədalət tərəfindən çıxış etməklə bu ölkələr, özləri üçün gələcək iqtisadi prespektivlər üçün də yol aça bilərdilər. Dünyanı cənginə almış pandemiya dönəmində insanların sağlamlığını qorumaqla yanaşı, böhrandan daha az zərərlə çıxmaq, iqtisadi fəallığı daha qısa müddətdə bərpa etmək üçün bütün ölkələr müxtəlif tədbirlər həyata keçirir, fundamental iqtisadi araşdırmalara əsaslanan proqram və konsepsiyalar hazırlayırlar. Qərəzli münasibət sərgiləmək və seçki maraqlarını qorumaq naminə bu ölkələr, işğaldan azad olunmuş torpaqların yenidənqurma işlərinə öz şirkətlərinin cəlb olunmasından da məhrum edirlər. Belə olan halda parlamentarilər öz addımları barədə ciddi düşünməli və hansı perspektivdən yola çıxdıqlarına nəzər yetirməlidirlər”.

## Paşinyan elə bir şok sənəd yaydı ki...



Sərhəd demarkasiyası kontekstində Ermənistan hakimiyyəti sərt tənqid olunur, milli maraqlara xəyanətdə, məğlubiyyətçi mövqedə və s. günahlandırılır. Xəbər verilir ki, bu iddialara cavab olaraq baş nazir Nikol Paşinyan Ermənistanın 2010-cu ildəki inzibati ərazi bölgüsü haqqında qanunundan hissə paylaşıb və bildirib ki, qanuna əsasən, Azərbaycanla dövlət sərhədi həlo o dövrdə müəyyənləşdirilib.

Hökumət başçısı Ermənistanın Geğarkunik bölgəsində yerləşən və Kəlbəcər ilə həmsərhəd olan Zod yatağı ərazisindəki Ermənistan-Azərbaycan sərhədini Azərbaycana təhvil verən bu qanunun fraqmentlərini yayımlayıb. Qanunda deyilir ki, Zod kənd icması Geğarkunik bölgəsinin cənub-şərq hissəsində, şimal-şərqdən və şərqdən Azərbaycan Respublikası ilə həmsərhəddir.

Paşinyan bu “yazıya” Ermənistan silahlı qüvvələrinin bu gün bu qanunda təsbit edilmiş sərhəd xəttinə uyğun olaraq yerləşdirildiyini qeyd edib: “Xatırladım ki, “Daşnaksütyun”, “Vətən” kimi fraksiyalar 2010-cu ildə bu qanunun qəbul edilməsinə səs veriblər. Qanun layihəsini Ermənistan hökuməti təqdim edib”. Onun sözlərinə görə, bu gün bu qanuna səs verən nazir və deputatların çoxu mövcud hökuməti və özünü Kəlbəcəri təslim etməkdə günahlandırırlar, halbuki özləri bu ərazinin Azərbaycan kimi tanınmasına dair qanun qəbul edib.

Xatırladaq ki, noyabrın 10-dan bəri Qarabağla bağlı üçtərəfli bəyanatın imzalanması elan edildikdən sonra Ermənistanda baş nazirin rəhbərlik etdiyi hökumətin istefası tələbi ilə etiraz aksiyaları keçirilir. N.Paşinyan Qarabağı təslim etməkdə günahlandırılır.

## “Son 17 ildə ölkəmizin inkişafı keyfiyyətcə yeni mərhələyə qədəm qoydu”



**“Ü**mummilli Lider Heydər Əliyevin Azərbaycanın inkişafı üçün müəyyənləşdirmiş olduğu unikal strategiya 2003-cü ildən başlayaraq cənab Prezident İlham Əliyev tərəfindən dövrün tələblərinə uyğun yeni elementlərlə zənginləşdirilərək davam etdirilməyə başladı. Bu da ümumilikdə ölkəmizin inkişafını həm miqyas, həm də keyfiyyətcə yeni bir mərhələyə qaldırdı”. Bunu SİA-ya millət vəkili Elşad Mirbəşiroğlu deyib.

Deputatın sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi dövründə bütün istiqamətlərdə Azərbaycanın çox ciddi potensialı formalaşdırıldı: “Ayrıca olaraq vurğulamaq lazımdır ki, milli iqtisadi sistemin inkişafında dinamiklik əhəmiyyətli dərəcədə artdı, ordu quruculuğu istiqamətində çox ciddi, təsirli addımlar atılmağa başladı. Xüsusilə də hərbi-texniki sahədə əməkdaşlıq əhəmiyyətli dərəcədə genişləndirildi. Azərbaycan ordusunun ən müasir tələblər çərçivəsində qurulması, müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində qısa zaman kəsiyində çox təsirli addımlar atıldı. Cənab Prezident İlham Əliyevin rəhbərliyi dövründə son 17 il ərzində Azərbaycan beynəlxalq münasibətlər sistemində olduqca təsirli rol oynamağa başladı. Vacib olaraq beynəlxalq münasibətlər sistemində, dövlətlərarası əməkdaşlıq sistemində özümüzün çox ciddi yerimizi müəyyənləşdirə bildik.

Nəzərə almaq lazımdır ki, qlobal təhlükəsizliyin təmin olunması istiqamətində Prezident İlham Əliyev həmişə çox ciddi digər beynəlxalq subyektlər tərəfindən dəstəklənən təşəbbüslərlə çıxış etdi. Bu təşəbbüslər beynəlxalq təhlükəsizlik məsələlərinin daha effektiv həll olunmasında çox ciddi rol oynadı. Hesab edirəm ki, bütün bunlar Azərbaycanın həm siyasi mövqelərinin möhkəmləndirilməsində, həm də iqtisadi, hərbi potensialının gücləndirilməsində çox təsirli rol oynadı. Vətən müharibəsindəki inamlı qələbəmizin əsasında dayanan əsas komponentlər də məhz bu 17 illik rəhbərlik dövründə formalaşdırıldı. Ölkə Prezidenti qeyd etmişdir ki, “Müharibəyə başlamaq üçün hər şeydən öncə münbit siyasi reallıqlar olmalıdır”. Cənab Prezident həmin reallığı özü formalaşdırdı. Bu reallıq ondan ibarət oldu ki, Azərbaycanın ərazi bütövlüyü birmənalı dəstəkləndi, bütün beynəlxalq platformalarda münaqişənin tənzimlənməsinin yeganə yolu kimi Azərbaycanın ərazi bütövlüyünün təmin olunması göstərildi. Yəni, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyünü çərçivəsində həll oluna bilər kimi mövqe formalaşdı.

Bunun ardınca Ermənistanın növbəti təxribatlarının qarşısını almaq məqsədilə sentyabrın 27-də Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsinə başladıq. Qısa zaman kəsiyində 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdik. Postmüharibə dövründə də hərbi qələbəmiz siyasi qələbəmizi daha da ardıcıl etdi. Noyabr ayının 9-da imzalanmış Birgə Bəyanatda yer almış şərtlər Azərbaycanın birbaşa diqtəsi altında formalaşdı. Azərbaycanın digər ərazilərinin də resurs sərf etmədən yeni əlavə güllə atmadan işğaldan azad olunması Azərbaycanın siyasi qələbəsi, eyni zamanda ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi”.

***Ceyhun Rasimoğlu***

## “Milli maraqların təmin edilməsi Prezidentimizin ən ali məqsədidir”



***“A**zərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət nəticəsində Azərbaycan bütün dünyada öz sözünü demiş bir dövlət sayılır. Möhtərəm Prezidentimizin 17 illik siyasi hakimiyyəti dövrü tarixin mühüm hissəsini təşkil edir”. Bunu millət vəkili Eldəniz Səlimov “Səs” qəzetinə açıqlamasında bildirib.*

E.Səlimov qeyd edib ki, Prezidentimiz İlham Əliyev Ulu Öndərimiz Heydər Əliyevin ən layiqli davamçısı və siyasi varisidir: “Bunun nəticəsidir ki, beynəlxalq arenada Azərbaycan mühüm söz sahibi olan dövlətlərdən biridir. Prezident İlham Əliyevin hakimiyyəti dövründə respublikamız daim inkişaf etmişdir. Ordu quruculuğu, mədəniyyət sahəmiz, səhiyyə sistemimiz, ümumi idarəçilik sistemimizdə aparılan islahatlar onu deməyə əsas verir ki, bütün bunlar Prezidentimizin idarəçiliyinin bəhrəsidir. Ən əsas bəlli vəziyyət isə 30 ilə yaxındır işğal altında olan torpaqlarımızın düşmən tapdağından azad edilməsidir. Bu Azərbaycan tarixində ən möhtəşəm hadisələrdən biridir. Təbiidir ki, bunun üçündə biz Ali Baş Komandanımıza təşəkkür etməliyik”.

Millət vəkili onu da qeyd edib ki, xalqın rifahının yüksəldilməsi və milli maraqların təmin edilməsi Prezidentimizin ən ali məqsədidir: “Onun verdiyi qərarlar, atdığı bütün addımlar dövlətimizin, millətimizin mənafeyi üçündür. Hər birimizə bəllidir ki, bütün görülən işlər yalnız xalqın rifahının yüksəldilməsi yönündədir. Azərbaycan xalqının hər bir fərdi bütün bunlar üçün cənab Prezident İlham Əliyevə öz dərin minnətdarlığını bildirir. Allah Prezidentimizi qorusun! Yaşasın müstəqil Azərbaycan!”.

***Gülyana***

# İşğaldan azad edilmiş ərazilərdə həyat yenidən canlanacaq

*Şəhər və kəndlərimizin bütün infrastrukturları bərpa edildikdən sonra əhalinin öz doğma yurdlarına dönüşü başlanacaqdır*

***Sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatından sonra Azərbaycan Ordusunun 44 gün davam edən əks-hücum əməliyyatı noyabrın 10-da tarixi Qələbəmizlə başa çatdı. Həmin gün Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanan birgə Bəyanatla Silahlı Qüvvələrimizin hərb meydanındakı möhtəşəm Qələbəsi diplomatik sahədə də rəsmiləşdirildi. Beləliklə, xalqımızın 30 il çəkən torpaq həsrətinə son qoyuldu, tarixi ədalət bərpa edildi. Prezident, Ali Baş Komandan İlham Əliyev qalib sərkərdə, Azərbaycan Ordusu ən güclü ordu, xalqımız isə ən böyük, məğrur, yenilməz xalq kimi dünyanın gözündə daha da ucaldı.***



Vətən müharibəsinin gedişində şəhər və kəndlər işğaldan azad edildikcə, eyni zamanda, yaşayış məntəqələri qeyri-qanuni məskunlaşan ermənilərdən təmizləndikcə düşmənin barbarlığı, faşist mahiyyəti bir daha üzə çıxdı. Şübhəsiz ki, beynəlxalq ictimaiyyət də işğalçı ölkənin 30 il ərzində törətdiyi vandal hərəkətlərindən, qeyri-insani əməllərindən xəbərdar idi. Lakin Ermənistana barbarlığına görə sanksiyalar tədbiq etmək təşəbbüsü göstərilmədi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilən yaşayış məntəqələrimizdə artıq yeni dövrün başladığını diqqətə çatdıraraq, hazırda bu ərazilərdə acınacaqlı vəziyyətin hökm sürdüyünü, yaşayış məntəqələrinin xarabalığa çevrildiyini, hətta evlərin pəncərə çərçivələrinin belə oğurlandığını, infrastrukturun tamamilə dağıdıldığını, salamat bir bina belə saxlanılmadığını, yerüstü və yeraltı sərvətlərin talan edildiyini, tarixi-dini abidələrin barbarcasına yerlə-yeksan edildiyini bildirib. Dövlətimizin başçısı, eyni zamanda, xatırladıb: "Biz bu torpaqları, bu şəhərləri, bu kəndləri bərpa edəcəyik. Ermənilər hesab edirdilər ki, bu dağıntılardan sonra heç vaxt Azərbaycan əhalisi bu torpaqlara qayıtmayacaq. Səhv etdilər. Onlar bilmirlər ki, Azərbaycan xalqının ürəyində - bizim xalqımızın qəlbində doğma torpaqlar əbədi yaşayır və yaşayacaq. Bizim bütün köçkünlərimiz bu illər ərzində bir arzu ilə yaşayıblar ki, öz doğma torpaqlarına qayıtsınlar, dövlətin dəstəyi və köməyi ilə orada özləri üçün yeni həyat qursunlar".

Prezident İlham Əliyev çıxışlarında bərpa zamanı bütün tədbirlərin əsaslı şəkildə gerçəkləşdiriləcəyini, bunun üçün Baş plan hazırlanacağını, mütəxəssislər cəlb olunacağını, infrastruktur layihələrinin planlı şəkildə icra ediləcəyini, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlərin görüləcəyini diqqətə çatdırıb. Eyni zamanda, vətəndaşlara dədə-baba yurdlarına qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcəyini də xüsusi vurğulayıb.

Əslində, dövlətimizin başçısı noyabrın 20-də xalqa müraciətində bildirdiyi kimi, Azərbaycan artıq bərpa işlərinə başlayıb. Füzulidən Şuşaya yeni yolun çəkilişi ilə bağlı bütün müvafiq göstərişlər verilib, Prezidentin ehtiyat fondundan ilkin olaraq 50 milyon manat vəsait ayrılıb. Bu işə gələn il də əlavə vəsait yönəldiləcəyi nəzərdə tutulub.

Azərbaycan Prezidenti həmin müraciətində daha sonra Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolunun çəkilişinə bir neçə şirkətin cəlb edilməsi, bununla da magistralın vaxt itirilmədən və qısa müddətdə gerçəkləşməsi üçün müvafiq qurumlara tapşırıqlar verdiyini də diqqətə çatdırıb. Ölkə rəhbəri bununla bərabər, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən yollar və kommunikasiyaların da işə salınmasının gələcəkdə bölgədə uzunmüddətli sülhə töhfə verəcəyinə əminliyini bildirib: "Bu işlər planlı şəkildə öz həllini tapacaq. Biz artıq birinci böyük layihəyə start verdik. Eyni qayda ilə biz Ağdam şəhərini və onun bütün infrastrukturunu bərpa etmək üçün ardıcıl addımlar atacağıq. Ağdamlılar və işğaldan azad edilmiş bütün başqa rayonların sakinləri əmin ola bilərlər ki, Azərbaycan dövləti hər zaman onların yanında olacaqdır".

Dövlətimizin başçısı çıxışlarında işğal altında saxlanıldığı dövrdə şəhər və qəsəbələrimizdə, kəndlərimizdə tarixi-mədəni irsimizin silinməsi, abidələrimizin erməniləşdirilməsi, məscidlərimizin dağıdılması, yeni xəritələrin tərtib edilməsi barədə ətraflı məlumat verib. Həmçinin işğaldan azad edilən yurd yerlərimizdə erməni vəhşiliyinin heç zaman unudulmayacağını, yaddaşlardan silinməyəcəyini, eyni zamanda, insanların tezliklə doğma torpaqlarına qayıdışı üçün bütün imkanların səfərbər ediləcəyini vurğulayıb. Bildirilib ki, işğaldan azad edilmiş şəhər və kəndlərimizin bütün infrastrukturları bərpa edildikdən sonra əhalinin öz doğma yurdlarına dönüşü başlanacaqdır.

Ölkə rəhbərinin sözlərinə görə, işğaldan azad edilən ərazilərdə inventarlaşdırma aparılandan, bizə vurulmuş ziyanın həcmi qiymətləndiriləndən sonra artıq Azərbaycan vətəndaşlarının evlərinə qayıdacaqları reallaşacaq. İkinci mərhələdə isə müvafiq hüquqi prosedurlar gerçəkləşdiriləcək, təcavüzkar məsuliyyətə cəlb ediləcək.

Xatırladaq ki, Dağlıq Qarabağ və ətraf rayonlarda 160 müxtəlif qiymətli metal yatağı var. Kəlbəcər, Laçın, Zəngilan və Tərtərdə qızıl, gümüş, civə, mis, qurğuşun, daş kömür, rəngli, dekorativ daş yataqları yerləşir. Ermənistanın ixracında mühüm yer tutan dağmədən məhsulları sırasındakı qızıl, mis, sink filizləri və konsentratlarının, həmçinin qiymətli metalların konsentratlarının xeyli hissəsi məhz Azərbaycanın işğal olunmuş ərazilərindəki Söyüdlü (Zod), Qızılbulaq, Vejnəli qızıl, Mehmana polimetal və Dəmirli misporfir yataqlarından hasil olunub. Bundan sonra bu zəngin və qiymətli yataqlar xalqımızın rifahına yönəldiləcək. Bu isə son nəticədə qeyri-neft sektorunda yeni gəlirlərin əldə edilməsini, iş yerlərinin yaradılmasını, ixrac potensialımızın artırılmasını şərtləndirəcək. Azərbaycanın 20 faizə yaxın ərazisinin 30 ilə yaxın bir müddətdə işğal altında qalması həmin torpaqların iqtisadi potensialından istifadəsinə imkan verməyib. Lakin bu gün işğaldan azad olunan rayonlarımızın iqtisadi və sosial inkişafı üzrə konsepsiyanın hazırlanması başa çatmaqdadır.

Milli Məclisin deputatı Vüqar Bayramov deyib ki, işğaldan azad olunan rayonların iqtisadi və sosial inkişafı üzrə konsepsiyanın hazırlanması yekunlaşır: "Sənədin yaxın zamanlarda ictimaiyyətə təqdim olunması gözlənilir. Konsepsiyada həmin ərazilərimizin inkişafı üçün təşviqedici tədbirlərin reallaşdırılacağı nəzərdə tutulur. Bütövlükdə işğaldan azad olunan rayonların inkişafı üçün həm o ərazilərimizdə məskunlaşacaq sakinlərimiz, həm də sahibkarlar üçün xüsusi güzəştlərin nəzərdə tutulmasına ehtiyac var".

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimizə həm bir prosesdə iştirak etmək həm də həmrəylik nümayiş etdirmək üçün bərpa işlərinə dost ölkələr cəlb olunacaq. Lakin Azərbaycan özü layihələri maliyyələşdirəcək. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdə elektroenergetika infrastrukturunun yaradılması məqsədilə "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayevlə İtaliyanın "Ansaldo Energia" şirkətinin rəhbəri Marino Guiseppenin və İtaliyanın ölkəmizdəki səfiri Augusto Massarinin iştirakı ilə videokonfrans formatında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb.

Bununla da azad Qarabağda həyata keçiriləcək layihələrə Türkiyə şirkətlərindən sonra başqa bir nüfuzlu dövlət - İtaliya da qol qoydu. Müqaviləyə görə, Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunacaq 4 ədəd 110 kV-luq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz "Ansaldo Energia" şirkəti həyata keçirəcək.

Onu da qeyd etmək yerinə düşər ki, İtaliya Azərbaycanın Avropa İttifaqı və ATƏT çərçivəsində sıx əməkdaşlıq etdiyi ölkə kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan müzakirələrdə həmişə Azərbaycanın haqlı mövqeyini dəstəkləyib, ölkəmizin səmimi, qətiyyətli və sadiq tərəfdaşı olduğunu təsdiq edib. Azərbaycanın 44 günlük haqlı savaşından sonra Azərbaycana səfər edən elə ilk Avropa nümayəndə heyətinin məhz italiyalı parlamentarilərin olması da Azərbaycan-İtaliya əlaqələrinin yüksək səviyyədə olmasının bariz nümunəsidir.

**Nigar Orucova**

## Şuşa, Xankəndi, Kəlbəcər və Laçında tikinti işləri seysmik rayonlaşma əsasında aparılmalıdır

Şuşa, Xankəndi, Kəlbəcər və Laçında tikinti işləri seysmik rayonlaşma əsasında aparılmalıdır. SİA-nın məlumatına görə, bunu AMEA-nın Respublika Seysmoloji Xidmət Mərkəzininin baş direktoru, müxbir üzvi Qurban Yetirmişli deyib.



Onun sözlərinə görə, Qarabağ ərazisində Şuşa, Xankəndi, Kəlbəcər və Laçın əraziləri sıldırım qayalı, kəskin relyefli dağlıq sahələrdir. Bu ərazilərdə magistral yolların çəkilməsi, dövlət əhəmiyyətli obyektlərin tikilməsi, çoxmərtəbəli yaşayış binalarının inşa olunması seysmik rayonlaşma və mikrorayonlaşma tədqiqatlarının ən müasir üsullarla və dəqiqliyi yüksək olan geofizik cihazlarla alınmış məlumatlara istinadən aparılmalıdır. Respublika Seysmoloji Xidmət Mərkəzi tikinti işləri üçün ən vacib olan seysmik rayonlaşma və mikrorayonlaşma istiqamətində də Qarabağ ərazisində genişmiqyaslı işlər görməyi planlaşdırır.

## İspaniya mediası Xankəndinin adının necə dəyişdirilməsindən yazıb


Reysan Publicaciones
TuVozenPinares
TVP Radio Portada Coronavirus Comarca Sociedad Entrevistas Gastronomía Deportes Opinión Descargas Páginas Amigas
¿Cómo Khankendi se convirtió en Stepanakert?
El presidente de la Asociación 'Unión de los Azerbaiyanos de España', Vahid Imanov, y el presidente de la Asociación de Azerbaiyanos en Valencia, Mubariz Ibrahimov, quieren que en España se conozca mejor la historia de Azerbaiyán y la de sus ciudades y territorios. Imanov es claro y rotundo:: ¡Karabaj es Azerbaiyán!

İspaniya "www.tuvozenpinares.com" xəbər portalında "Xankəndi necə Stepanakert oldu?" başlıqlı məqalə dərc olunub. Məqalə İspaniya Azərbaycanlıları Birliyinin sədri Vahid İmanov və Valensiyadakı Azərbaycanlılar Birliyinin sədri Mübariz İbrahimovun fikirləri əsasında hazırlanıb. SİA-nın xəbərinə görə, müəlliflər Xankəndinin inşa tarixi haqqında məlumat verib, Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədən çoxlu sayda erməni ailəsinin Qarabağda yerləşdirildiyini, amma Xankəndi adının yalnız sovetlər dönəmində Stepanakert olaraq dəyişdirildiyini vurğulayıb. Qeyd edilib ki, bu addımı 1923-cü ildə Moskva tərəfindən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin edilən Sergey Kirov atıb: "Bu şəhər 20.000-dən çox azərbaycanlının qətlinə şəxsən rəhbərlik etmiş, Bakıda sovet kommunist diktaturasını yaratmış Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırılıb".

Dağlıq Qarabağ münaqişəsinin tarixi, Azərbaycanın bu bölgəsində yaşayan azərbaycanlıların etnik təmizləmələrə və soyqırıma məquz qaldıqları, daha sonra bölgə ətrafında olan 7 rayonun - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanın Ermənistan tərəfindən işğal edildiyi barədə ətraflı məlumat verilib. Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunması və işğalçı Ermənistan ordusunun bu ərazilərdən çıxarılması ilə bağlı diplomatik danışıqların nəticə verməmdiyi, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin icra olunmadığı bir dönəmdə Azərbaycanın yeni ərazilərini işğal etmək məqsədilə Ermənistan silahlı qüvvələrinin 12 iyul 2020-ci il tarixində Dağlıq Qarabağ bölgəsindən uzaqda yerləşən Tovuz rayonu istiqamətində hərbi təxribat törətdiyi bildirilib. İşğalçı Ermənistan ordusunun 27 sentyabr 2020-ci ildə isə bütün cəbhəboyu genişmiqyaslı hücuma keçməsi 44 günlük müharibənin başlanmasına gətirib çıxarıb. Müharibə zamanı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun torpaqlarımızı işğalçılardan azad etdiyi və parlaq Qələbə qazandığı bildirilib: "10 noyabr tariximizə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunduğu şərəfli Zəfər Günü kimi yazıldı! Qarabağ Azərbaycandır!". Məqaləni daha ətraflı çəkildə aşağıdakı linkdən oxumaq mümkündür: https://www.tuvozenpinares.com/articulo/sociedad/como-khankendi-convirtio-stepanakert/20201208112714029408.html

**Gülyana**

# Yeni dələduzluq: Xakerlər elan saytları adından vətəndaşları necə soyur?




FOTOFAKT

Son günlərdə yeni bir fırıldaq və soyğunçuluq forması ortaya çıxıb. SİA xəbər verir ki, elan saytlarında öz malını satışa qoyan vətəndaşlara naməlum şəxs tərəfindən mesaj göndərilir ki, mən hazırda xaricdəyəm, ona görə də gəlib nağd pul verib götürə bilməyəcəm, pulu sizin kart hesabına köçürmək istəyirəm, zəhmət olmasa kart nömrəsini, Swift kodunu və kart tarixini göndərin. Ya da yazılır ki, məsələn, Lalafo-nun hesabına köçürürəm, pulu ordan götürə bilərsiniz. Bir az sonra telefona mesaj və link gəlir ki, Lalafo.az-dakı profil hesabınıza 500 manat köçürüldü. Link "lalafo" sözü ilə başlayır və açılan səhifədə kartın məlumatlarını daxil etmək tələb olunur. Məlumatlar daxil olunduqdan sonra isə hesabınızdakı bütün pullar çıxarılır.

Aşağıdakı fotolarda 1 nəfər aldadılan və hesabından 1100 manat pulu oğurlanan (feysbuk skrin fotosuna bax- red) və 1 nəfər aldanmayan vətəndaşın mesajları (messencer skrin fotolarına bax- red) verilib.

Bundan xəbərdar olan kimi Lalafo onlayn elan saytı dərhal ön səhifədə bununla bağlı xəbərdarlıq qoyub (saytın foto skrininə bax- red). Lakin artıq neçə nəfər vətəndaş aldadılaraq bank hesabından xeyli pul çıxarılıb. Pulun hansı mənbədən çıxarıldığını da təyin etmək mümkün olmur.

Mütəxəssislər belə əməllərə qarşı ehtiyatlı olmağa, hesab nömrəsindən başqa digər məlumatların heç kimə verilməməsini məsləhət görürlər. Ümumiyyətlə, bank kartı istifadə edənlər ən azı bilməlidirlər ki, hesaba ödənişlə, hesabdan ödənişə fərqli kodlar tələb olunur. Hesaba ödəniş və ya köçürmə üçün bank hesab nömrəsi və (əgər kimsə terminaldan pul köçürəcəksə) şəxsiyyət vəsiqəsinin nömrəsi də tələb oluna bilər.

Kartdan ödəniş üçün isə öndə yazılan 16 rəqəmli kod, kartın bitmə tarixi, arxada qeyd olunan 3 rəqəmli Swift kodu tələb olunur- əgər siz bu kodları kiməsə verminizsə o sizin hesabdakı bütün pulu çıxara və ya aldığı mal üçün onlayn ödəniş edə bilər.

Ümumiyyətlə, ekspertlər kart hesabları üçün bankdan 3D təhlükəsizlik kodu almaq məsləhət görür. Ehtiyatlı olun, elekron quldurların tələsinə düşməyin.

*Elçin Bayramlı*

## Gələn il üzrə dövlət büdcəsinin gəlirlərinin neçə faizi neft sektorunun payına düşür?



2021-ci il üzrə proqnozlaşdırılan dövlət büdcəsinin gəlirlərinin 54,2 faizi və ya 13 milyard 776 milyon manatı neft sektorunun, 45,8 faizi və ya 11 milyard 651 milyon manatı qeyri-neft sektorunun payına düşür. 2020-ci ilin proqnozu ilə müqayisədə neft sektorunun gəlirləri 214 milyon manat və ya 1,5 faiz az, qeyri-neft sektorunun gəlirləri isə 1 milyard 517 milyon manat və ya 15 faiz çox, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə neft sektorunun gəlirləri 171,4 milyon manat və ya 1,3 faiz, qeyri-neft sektorunun gəlirləri isə 1 milyard 37,5 milyon manat və ya 9,8 faiz çoxdur.

AZƏRTAC xəbər verir ki, bu barədə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Qanun layihəsində deyilir. Bildirilir ki, neft sektoru üzrə dövlət büdcəsinin gəlirlərinin 88,6 faizini və ya 12 milyard 200 milyon manatını Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfert, 11,4 faizini və ya 1 milyard 576 milyon manatını vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar təşkil edir. Vergi orqanlarının xətti ilə neft sektoru üzrə daxilolmalarda SOCAR üzrə büdcə ödənişləri 1 milyard 136 milyon manat və neft-qaz sahəsində fəaliyyət göstərən hasilatın pay bölgüsü sazişlərindən mənfəət vergisi 440 milyon manat nəzərdə tutulur ki, bu da vergi orqanları tərəfindən neft sektoru üzrə daxilolmaların müvafiq olaraq 72,1 və 27,9faizini təşkil edir.

SOCAR və onun törəmə müəssisələri tərəfindən 1 milyard 136 milyon manat məbləğində dövlət büdcəsinə vergi öhdəlikləri 2020-ci ilin təsdiq edilmiş proqnozundan 104 milyon manat və ya 8,4 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 273,3 milyon manat və ya 19,4 faiz azdır. Azalmanın əsas səbəbi növbəti il üzrə xam neft ixracının azalması, təbii qazın ixrac qiymətinin aşağı düşməsi, Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli Qanunu ilə Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, 2020-ci il yanvarın 1-dən ƏDV üzrə vergi tutulan əməliyyatın vaxtının təqdim edilən mallar (işlər və xidmətlər) üzrə faktiki ödənişin aparıldığı vaxt sayılmasının şirkətin vergi öhdəliklərinə təsirinin nəzərə alınması olub.

Hasilatın pay bölgüsü sazişlərindən mənfəət vergisi 440 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin təsdiq edilmiş proqnozundan 110 milyon manat və ya 20 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 391 milyon manat və ya 47,1 faiz azdır. Azalmanın səbəbi "OPEC+" sazişi çərçivəsində satış üzrə neft həcmlərinin azalması ilə bağlıdır.

## Ermənilərin təkcə mineral suların istismarından vurduğu ziyan: 7,5 milyard manat!



Ermənilər tərəfindən təkcə Kəlbəcərdəki mineral su bulaqlarının istismarı Azərbaycana 7.5 milyard manat həcmində ziyan vurub. SİA-nın məlumatına görə, bunu AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya üzrə fəlsəfə doktoru Mirnuh İsmayılov deyib. O qeyd edib ki, ermənilər həmin suları qablaşdıraraq öz adları ilə ixrac ediblər. Bizə məxsus qızıl, civə yataqlarından onların əldə etdikləri gəlir isə qat-qat artıq olub ki, bu da bizim itkilərimizin hesabındadır.

Kəlbəcərin təbii ehtiyat potensialının təsərrüfatın inkişafına geniş imkanlar yaratdığını diqqətə çatdıran alim ərazidə yenidənqurma, bərpa layihələrinin həyata keçirilməsi üçün ciddi landşaft planlaşdırılmasının aparılması, relyefin, təbii şəraitin nəzərə alinmasının vacibliyini qeyd edib. İnstitut rəsmisi bidirib ki, Kəlbəcər yüksək dağlıq şəraitinə malik olduğundan burada əkinçilik təsərrüfatındansa, mal-qaranın inkişaf etdirilməsi ilə daha yaxşı nəticələr əldə etmək olar.

## Gələn il Bakıya daha 355 yeni avtobus gətiriləcək



Gələn il Bakıya daha 355 yeni avtobus gətiriləcək. Bu barədə SİA-ya Bakı Nəqliyyat Agentliyindən məlumat verilib. Məlumatda bildirilir ki, paytaxtın marşrut şəbəkəsi üçün yenilik hesab olunan BMC markalı Neocity 9 metrlik sərnişin avtobuslarının alınması sayəsində mümkün olacaq. Avtobusların paytaxta çatdırılmasına növbəti aylardan başlanılacaq. Bakı Nəqliyyat Agentliyi ilə qardaş Türkiyə respublikasınını "BMC Otomativ Sənaye və Ticarət" şirkəti arasında imzalanan müqaviləyə əsasən 2021-ci ildə şəhərimizə ümumilikdə 205 ədədi 9, 150 ədəd isə 12 metr olan sərnişin avtobusları alınacaq.

Müqavilə Dekabrın 10-da Azərbaycan və Türkiyə Prezidentlərinin iştirakı ilə imzalanıb. Bundan dərhal sonra isə BMC markalı Neocity 9 metrlik avtobusa sınaq baxışı keçirilməsi məqsədi ilə Bakı Nəqliyyat Agentliyinin nümayəndə heyəti qardaş ölkənin İzmir şəhərinə səfər edib.

# Ermənistan tarixi dilemma qarşısında

***Ermənistanın 16 müxalif siyasi partiyasının vahid namizədi kimi baş nazir vəzifəsinə irəli sürülən Vazgen Manukyan Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası ilə bağlı aparılan işlərin dayandırılmasını tələb edib. Müxalifətin vahid namizədi 10 noyabr tarixli üçtərəfli Bəyanatda sərhədlərin delimitasiyası ilə bağlı heç bir tələbin olmadığını əsas gətirərək sərhədboyu ərazilərdə Azərbaycan torpaqlarından geri çəkilməməyə çağırır. Deməli, son aylarda Qarabağda nəyin baş verdiyini Ermənistan siyasiləri hələ də dərk etmir və ya özlərini bilməməzliyə qoyurlar. Hər iki halda Ermənistan siyasi partiyalarının gündəliyində erməni xalqının mənafeyinin olmadığı görünür. "İki sahil" xəbər verir ki, bu fikirləri Milli Məclisin deputatı Cavanşir Feyziyev bildirib.***

Deputat deyib ki, əgər doğrudan da müxalifət partiyaları torpaqların işğalını davam etdirmək niyyətini güdürlərsə, bu cəhd sadə erməniləri yenidən Azərbaycan əsgəri ilə üz-üzə gətirəcək və bundan erməni dövlətinin və xalqının nə isə əldə edəcəyinə inanmaq axmaqlıqdır. Bu, erməni xalqını və dövlətini intihara sürükləməkdir. Bunu müxalifət partiyalarının başa düşməməsi mümkün deyil.



İkinci halda, əgər Ermənistan müxalifəti özünü bilməməzliyə qoyursa və sona qədər müharibə ritorikası əsasında siyasi hakimiyyətə yiyələnmək niyyəti güdürsə, bu da erməni xalqına yaxşı heç nə vəd etmir. Belə çıxır ki, mövcud hökümət əleyhinə keçirilən mitinqlərdə söylənilən pafoslu çıxışlar müharibənin nəticələri ilə bağlı deyil və məhz siyasi hakimiyyətə gəlmək üçün növbəti dəfə ictimai fikri çaşdırmaq cəhdidir.

Belə düşünmək olardı ki, Paşinyanın və onun timsalında Ermənistanın düşdüyü bugünkü ağır vəziyyətdə Ermənistanı və erməniləri sevən bütün siyasi qüvvələr öz aralarındakı mübarizəni kənara qoyub birlikdə Ermənistanı xilas etməyə çalışacaqlar. Amma görünən odur ki, erməni siyasətçiləri öz mahiyyətlərinə uyğun olaraq ən çətin anda bir-birinə qarşı çıxmağa və siyasi hakimiyyətə gəlmək naminə "Paşinyanın satqınlığı" ilə manipulyasiya etməkdən çəkinmirlər. Hakimiyyətə gəldikdən sonra xalqa nə vəd edirlər - bu barədə isə susmağa üstünlük verirlər. Çünki müxalifətin hələlik öz xalqına təklif etdiyi yeganə seçim məhz müharibəni davam etdirməkdən ibarətdir və özündən əvvəlki iqtidarlar kimi bu günkü müxalifətin də hakimiyyətə gələcəyi halda yeni bəlalardan başqa erməni xalqına verəcəyi bir şeyi yoxdur. Buna baxmayaraq Ermənistan müxalifəti 22 dekabradək Paşinyana hakimiyyətdən getmək haqqında ultimatum verib.

Ermənistan iqtidarı müxalifətin seçimini dəstəkləməsə də qətiyyətli şəkildə ona qarşı çıxmağa da qorxur. Eyni zamanda, erməni xalqını bugünkü böhrandan necə və hansı yollarla çıxaracağı haqqında anlaşıqlı açıqlama da verə bilmir.

Baş nazir Paşinyan hələlik özündə cəsarət toplayaraq "Ermənistanı yenidən quraq" şüarını irəli sürüb. Bu baxımdan 19 dekabrda Paşinyanın xalqa müraciətini onun müxalifətin müharibə çağırışına alternativ proqramı kimi başa düşmək olar. "...Biz dünyaya yeni gözlə baxmalıyıq, biz nə edəcəyimizə yenidən baxmalıyıq və biz öz imkanlarımızı yenidən dəyərləndirməliyik, ....biz yeni cür arzulamalı və öz arzularımızı yenidən qurmalıyıq". Məntiqli yanaşmadır. 44 günlük savaşda keçdikləri tarixi dərsdən sonra ermənilər əsrlər boyu onları alçaldan saxta "ucalıqdan", onları kiçildən "böyük xalqdan" və "böyük torpaqlardan", onları daha da cılızlaşdıran "qədimlikdən" danışmağı unutmalı, müasir və sivil düşüncə tərzinə yiyələnməlidirlər.

Hələlik isə erməni xalqı öz mövcudluğunun tarixi dilemması qarşısındadır. Münaqişəni davam etdirərək nəinki Qarabağı, həm də Ermənistanın bütün gələcəyini itirmək, yoxsa keçmişin səhvlərindən nəticə çıxararaq ədalət naminə məğlubiyyəti səmimiyyətlə qəbul etmək?



## Arsen Babayan: "Paşinyan qorxudan 200-300 silahlı mühafizəçi ilə gəzir"

2018-ci ildə ölümdən qorxmadığını söyləyən Ermənistanın baş naziri Nikol Paşinyan indi pulemyotla silahlanmış 200-300 cangüdənlə gəzir. SİA Ermənistana məxsus armenianreport.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu "Rodina" partiyasının üzvü Arsen Babayan bu gün, 22 dekabr tarixində müxalifətin mitinqi zamanı jurnalistlərə verdiyi müsahibəsində söyləyib. Onun sözlərinə görə, Paşinyan Ermənistanda varlığını bu şəkildə təsəvvür edirsə, deməli bu onun seçimidir, amma bu uzun müddət davam edə bilməz.

"Dövlət və yerli özünüidarəetmə orqanları, elm, təhsil təşkilatları, mədəniyyət və idman xadimləri uzun müddətdir Paşinyanın hakimiyyətinin olmadığını nümayiş etdirirlər. Bu şəkildə davam edərsə, belə bir mənzərə bütün sferalarda müşahidə ediləcək və inkişaf edəcək", deyə Arsen Babayan bildirib.

# Mixail Aleksandrov: "ABŞ Türkiyəyə tətbiq olunan sanksiyalardan çox şey itirdi"

***ABŞ Türkiyəyə qarşı sanksiyalar tətbiq etməklə Rusiyaya qarşı çıxmaq siyasətində əks nəticə əldə etdi: Ukraynada Moskvanın taktiki qələbəsini təmin etdi, Aralıq dənizindəki nüfuzunu itirdi və Rusiya silahlarının Türkiyə bazarına daha çox daxil olmasına kömək etdi. Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun (MGIMO) Hərbi-Siyasi Araşdırmalar Mərkəzinin aparıcı mütəxəssisi, siyasi elmlər doktoru Mixail Aleksandrov "Pravda" qəzetinə şərhində bu məsələlərlə bağlı maraqlı məqamlara toxunub. Məqaləni oxucularımıza təqdim edirik.***




Mütəxəssis, Vaşinqtonun Suriyada və ya Liviyada belə bir istəyinin ola biləcəyini istisna etmir, çünki ABŞ 2016-cı ildə Rəcəb Ərdoğana qarşı Türkiyədəki hərbi çevrilişi dəstəklədi. Bu səbəbdən Türkiyənin Rusiyanın hava hücumundan müdafiə sistemlərinə ehtiyacı var və Türkiyə "nə etdiyini tamamilə başa düşür".

Mixail Aleksandrovun fikrincə, müstəqil siyasət yürütmək istəyən hər bir ölkənin müxtəlif mənbələrdən silahları olmalıdır və Türkiyə bunu ardıcıl olaraq həyata keçirir.

Sanksiyalara düşmək təhlükəsi Rəcəb Ərdoğanı dayandıra bilmədi. 2017-ci ilin payızında Ankara, texnologiyanın ötürülməsi ilə S-400 hava hücumundan müdafiə sistemlərinin alınması barədə müqavilə imzaladı. İlk batareya 2019-cu ilin iyul ayında verildi. Bir həftə sonra ABŞ Türkiyəni F-35 qırıcı proqramından kənarlaşdırdı. Eyni zamanda, Türkiyə artıq layihəyə yatırılan 10 milyard dollara qədər pul itirdi və indi də vəd edilən sanksiyalar tətbiq edildi.

### ABŞ Rusiyanı cəzalandırmaq üçün Türkiyəyə sanksiya tətbiq etdi

Amerika Rusiyadan hərbi texnika alan ölkələrə və şirkətlərə sanksiya tətbiq etdi. Dövlət Departamentinin veb saytında 17 dekabr cümə axşamı günü Dövlət katibi Mike Pompeonun Türkiyə xarici işlər naziri Mövlut Çavuşoğluna müraciəti dərc edildi. Müraciətdə Türkiyənin S-400 sistemlərini satın almasının "Amerikalı personalın və hərbi texnikanın təhlükəsizliyini təhlükəyə atdığını və Rusiyaya Türkiyənin hərbi və müdafiə sənayesinə giriş imkanı verdiyini" açıq şəkildə bildirdi. Dövlət katibi "sanksiyaların məqsədinin Rusiyanın əhəmiyyətli gəlir, çıxış və təsir qazanmasının qarşısını almaq olduğunu və bunların Türkiyənin və ya digər ABŞ müttəfiqinin və ya ortağının hərbi qabiliyyətini və döyüş hazırlığını sarsıtmaq məqsədi daşımadığını" vurğuladı.

### ABŞ Türk qarnizonlarını bombalaya bilər

Bildirdi ki, əgər ABŞ türk qarnizonlarını bombalamağa qərar verərsə, S-400 sistemləri həqiqətən də ABŞ personalını təhdid edir.

### ABŞ-ın Türkiyəyə qarşı tətbiq etdiyi sanksiyalar onun suverenliyini pozur

Türkiyə Respublikası Müdafiə Sənayesi Müdirliyinin (SSB) rəhbərliyinə qarşı tətbiq olunan sanksiyalara aşağıdakılar daxildir:

-SSB tərəfindən ötürülən hər hansı bir mal və ya texnologiya üçün ABŞ-ın müəyyən ixrac lisenziyalarının və icazələrinin verilməsinə qadağa;

-ABŞ maliyyə institutlarından SSB üçün 12 aylıq hər hansı bir dövrdə ümumi dəyəri 10 milyon dollardan çox olan ssuda və kreditlərə qadağa;

-SSB ixracatı üçün ABŞ İxrac-İdxal Bankının yardımına qadağa;

-ABŞ-ın SSB lehinə beynəlxalq maliyyə təşkilatlarından götürdüyü kreditlərə qarşı çıxmasını tələb etmək;

-Türkiyənin əsas hərbi idarələrinin yüksək vəzifəli şəxsləri, xüsusən agentliyin rəhbəri İsmail Dəmirə qarşı üçün viza məhdudiyyətlərinin tətbiqi və aktivlərin tam blokadası.

Yəni, bunlar əslində sektoral sanksiyalardır. Ərdoğanın onları ölkənin suveren hüquqlarına qarşı bir hücum adlandırması təsadüfi deyil.

"Onların əsl məqsədi bizi müdafiə sənayesində asılı vəziyyətə gətirməkdir. Müdafiə sənayemizi daha da müstəqil etmək üçün ikiqat daha çox çalışacağıq" Ərdoğan Türkiyənin NTV kanalında dedi.

Mixail Aleksandrovun sözlərinə görə, Ərdoğan üçün bu, onsuz da fundamental bir siyasi məsələdir və amerikalılar "həddən artıq açıq şəkildə sanksiyalara getdilər". "İndi Ərdoğan Rusiya ilə müqavilədən mütləq imtina etməyəcək"- ekspert deyir.

### Ukrayna türk silahlarını almaya bilər

ABŞ Türkiyəni cəzalandırmaqla NATO-dakı Türk-Amerikan ittifaqını zəiflətməklə yanaşı, Ukraynanı da zəiflətdi, bu da Rusiyanın taktiki qələbəsi deməkdir.

Məsələ burasındadır ki, bu yaxınlarda İsmayıl Dəmir Kiyevlə korvet və hücum pilotsuz təyyarələrinin birgə istehsalı barədə hərbi müqavilə imzaladı. Lakin sanksiyalarda göstərilən kredit məhdudiyyətlərinin və ixrac lisenziyalarının qadağan olunmasının Türkiyə ilə Ukrayna arasındakı hərbi əməkdaşlığı əngəlləyəcəyi və onun Qara dənizdəki potensialını artırmasına imkan verməyəcəyi ehtimalı yüksəkdir.

### Rusiya Türkiyəyə daha çox silah təklif edəcək

Ticarət yalnız Ukrayna ilə məhdudlaşmır. Türkiyənin Orta Şərqdə və Aralıq dənizində güclü bir mövqeyi var. Suriyada, İraqda, Liviyada, Azərbaycanda, Fars körfəzində, Afrikada, Avropada- qaçqın məsələsində, Şərqi Aralıq dənizində - Yunanıstanla ərazi mübahisələrində mövcuddur.

ABŞ Türkiyə ilə münasibətləri korlayaraq, bütün bu strateji bölgələrdəki hadisələrə təsir etmək qabiliyyətini zəiflədəcək, nəticədə Rusiyanın Türkiyə silah bazarına daha çox daxil olmaq şansı artır.

Ekspert düşünür ki, Türkiyə müdafiə sənayesinin rəhbərinə qarşı tətbiq olunan sanksiyalar onun üçün ciddi bir cinayətdir. Onlar amerikalılara qarşı kin saxlayacaq. Ancaq bu, bizim üçün Türkiyə bazarına girmək üçün imkanlarını artıracaq".

### ABŞ geostrateji olaraq Rusiyaya uduzur

Türkiyə ilə qarşıdurmada ABŞ-ın konstruktiv hərəkət edə və səhvlərini düzəldə bilməməsi açıq şəkildə özünü büruzə verdi və bu da geostrateji səhv hesablamalara səbəb oldu. Görünən odur ki, Amerika tərəfdarı hərbçilərin 16 iyul 2016-cı ildə etdiyi uğursuz çevriliş cəhdini dəstəkləməyin nəticələrini düzəltmək lazımdır. Sui-qəsdin uğursuzluğu, prezident Ərdoğanın Qərb əleyhinə köklənməsinə və bölgədəki digər nüfuzlu oyunçuya-Rusiyaya tərəf sürüklənməsinə səbəb oldu.

Burda Amerika üzr istəməli və Türkiyədə terrorizmdə günahlandırılan müxalifət lideri Güləni təhvil verməli idi, ancaq özünə arxayınlıq və narsizm imkan vermədi, Ankaranın Vaşinqtonla münasibətləri o zamandan bəri getdikcə daha da gərginləşdi və həll olunmaqdan uzaqdır.

Vaşinqtonun, ABŞ-a bənzər bir "yumşaq güc" olmadığı təqdirdə, Rusiyanın öz şanslarını necə mükəmməl şəkildə həyata keçirdiyini görmə vaxtı gəldi. Rusiya və Türkiyə 2015-ci ildə Rusiyaya məxsus Su-24M təyyarəsinin vurulmasından sonra, silahlı bir qarşıdurmanın astanasındaydılar və ya ən azından hərbi-texniki əməkdaşlıq imkanlarını tamamilə istisna edən bir qarşıdurma vəziyyətində idilər. Lakin Rusiyanın Türkiyəyə tətbiq etdiyi sanksiyalardan sonra Ankara üzr istədi və münasibətlər davamlı olaraq yaxşılaşmağa başladı, bu gün ölkələr hər yerdə bir-birinə güzəştə gedir.

***Tərcümə etdi - Elçin Bayramlı***

# "Erməni məsələsi" Böyük Sovet Ensiklopediyasında

II HİSSƏ

**"Erməni məsələsi" adlandırılan problemin meydana gəlməsi hansı tarixi şərtlərdən və proseslərdən doğub?**

*Əvvəli burada https://sia.az/az/news/politics/843927.html*

1890-cı illərdə erməni millətçi burjuaziyasının təbəqələşməsi rəhbər Daşnaksütyun partiyasını siyasəti dəyişdirməyə məcbur etdi- partiya Ümumtürkiyə inqilabi hərəkatında dayaq axtarmağa başladı. "Gənc türklər"lə saziş bağladı. 1907-ci ildə daşnakların təşəbbüsü ilə Osmanlı imperiyasının bütün müxalifətçi partiyalarının Parisdə qurultayı keçirildi. Qurultayda dövlət çevrilişi planı işlənib hazırlandı.

Çevriliş 1908-ci ildə həyata keçirildi, lakin daşnakların gözlədikləri nəticəni vermədi: yeni rejimdə ermənilərin vəziyyəti qətiyyən yaxşılaşmadı. Həm də gənc türk hökuməti təqsirkarları yüngülcə cəzalandırmaqla kifayətləndi. Bununla əlaqədar olaraq erməni siyasi dairələri yenə də istiqaməti dəyişdilər və özlərini ilkin dayaq bazasına-Rusiyaya üz tutdular. Bu dəfə çar hökuməti məmnuniyyətlə onlara meyl göstərdi. Dünya müharibəsi yaxınlaşırdı; Milyukovun ifadəsincə, "Rusiya ilə Türkiyə arasındakı yol ayrıcında məskən salmış" ermənilər böyük siyasi əhəmiyyət kəsb etdilər. 1913-cü ildə rus diplomatları mütəşəkkil erməni burjuaziyası ilə saziş bağladılar və "məzlum ermənilərin müdafiəsi" uğrunda açıq çıxış edərək şərq vilayətlərində islahatlar keçirilməsi tələbini irəli sürdülər. Almaniyanın müdafiə etdiyi Türkiyə hökuməti inadlı müqavimətdən sonra 1914-cü ildə islahatlar haqqında saziş imzalamağa məcbur oldu. Həmin sazişə görə ermənilər dövlətlərin, birinci növbədə Rusiyanın nəzarəti altında idarəetmə, dil, hərbi mükəlləfiyyət və s. sahələrdə çox geniş muxtariyyət almalı idilər.

Rusiyanın bu müdaxiləsi saziş imzalanandan azacıq sonra başlanmış dünya müharibəsi zamanı ermənilərin vəziyyətini xeyli ağırlaşdırdı, həm də müharibə başlanan kimi daşnaklar "Böyük Ermənistan" şüarını yenidən ortaya atdılar, üstəlik əsas etibarilə Türkiyənin fərari ermənilərindən ibarət könüllü dəstələr yaratmağa başladılar...

1917-ci il fevral inqilabı erməni məsələsinin tarixində yeni dövr açdı. Bir il ərzində Zaqafqaziya Rusiya ilə əlaqə saxlamaqda davam edirdi və Petroqraddan direktiv almış Xüsusi Zaqafqaziya Komitəsi tərəfindən idarə olunurdu...

1917-ci ilin oktyabrında daşnakların rəhbərliyi altında erməni milli konqresi toplaşdı. Konqres Ermənistanla Rusiyanın digər hissəsinin əlaqəsini təsdiq etdi və Türkiyə Ermənistanının dünya müharibəsi zamanı rus qoşunları tərəfindən işğal olunmuş ərazilərinin Rusiyada saxlanılması tələbini irəli sürdü. Konqresdə Tiflisdə yerləşən erməni "milli mərkəzi" və 15 üzvdən ibarət milli şura seçildi.

Mərkəzi dövlətlərin darmadağın edilməsi erməni burjuaziyası qarşısında yeni və geniş imkanlar açdı: müharibədən sonra yaranmış şəraitdə ermənilər qaliblərə təkcə Türkiyə əleyhinə (Kilikiyada) deyil, həm də Sovet Rusiyası əleyhinə (Zaqafqaziyada) dayaq kimi çox "lazım idilər". Erməni məsələsi yeni, əvvəlkindən daha böyük əhəmiyyət kəsb edirdi. Bununla əlaqədar olaraq "qalib dövlətlər" hər şeydən əvvəl ən təhlükəli saydıqları "Sovet istiqaməti"ndə özlərinin müvafiq "erməni bazası"nı yaratmaqdan ötrü tədbirlər gördülər.

Daşnakların Ermənistan respublikası müttəfiqlərdən Kars vilayətini, İrəvan quberniyasını aldı ki, bu da Ermənistanın ərazisinin 17 500 ingilis kvadratmilinə, əhalisinin 1 510 000 nəfərə (795 000 nəfər erməni, 575 000 nəfər müsəlman, 140 000 nəfər digərləri) çatmasına imkan verdi. Daşnaklar bununla kifayətlənməyərək, Gürcüstanın tərkibindəki Axalkalaki və Borçalı ərazilərinə, həmçinin, Azərbaycanın tərkibindəki Qarabağa, Naxçıvan diyarına, Yelizavetpol quberniyasının cənub hissəsinə yiyələnmək iddiasında olduqlarını bildirdilər. Həmin əraziləri zorla ilhaq etmək cəhdləri (ingilislərin Zaqafqaziyanın işğal etdikləri dövrdə) Gürcüstanla müharibəyə (dekabr 1918-ci il) və Azərbaycanla uzun, qanlı mübarizəyə səbəb oldu. Nəticədə mübahisəli rayonların əhalisi 10-30% azaldı və bir sıra yaşayış məntəqələri, sözün əsl mənasında, ermənilər tərəfindən yerlə-yeksan edildi...

İngiltərənin Yaxın Şərqdəki vəziyyətini möhkəmləndirən tədbirlər- 1919-cu ildə İranla müqavilə bağlaması və Konstantinopolu işğal etməsi (mart 1920) onun "Erməni məsələsi"nə marağını tamam soyutdu: 1919-cu ilin axırlarında İngilislər Zaqafqaziyanı tərk etdilər və San-Remodakı konfransda (aprel-may-1920) Ermənistanın taleyi məsələsi... lazım olmadığı üçün Qərbi Avropa imperialistlərinə- Şimali Amerika imperialistlərinə verildi...

Beləliklə 2 "erməni bazası"ndan biri ləğv edildi. Erməni məsələsi Zaqafqaziyada cəmləşdi. "Böyük Ermənistan"la bağlı bütün ümidlərinin açıq-aydın puça çıxmasına baxmayaraq, daşnaklar burada davakar millətçilik siyasəti yeritməkdə davam edirdilər. Sovet sərhəddi Ermənistanın şimalı boyu müəyyən ediləndən sonra onların vəziyyəti xeyli ağırlaşdı: daşnakların terrorçu rejimindən, saysız-hesabsız talan və müharibələrdən təngə gələn, daim aclıq və dilənçilik şəraitində yaşayan Ermənistanın xalq kütlələri kortəbii surətdə Sovet hakimiyyətinə can atırdılar. Bakıda Sovet hakimiyyəti qurulandan cəmi 3 gün sonra Ermənistanın bir sıra məntəqələrində üsyanlar qalxdı (Aleksandropolda hətta bir neçə saatlığa Sovet hakimiyyəti elan edildi). Üsyanlar daşnaklar tərəfindən vəhşicəsinə yatırıldı. Digər tərəfdən, Sovet Rusiyası ilə Ankara arasında 1920-ci ildə başlanmış dostluq münasibətləri daşnak Ermənistanı ilə toqquşdurdu, çünki daşnak Ermənistanı adları çəkilən dövlətlərin birləşdikləri yolda düşmən qüvvə kimi dururdu.

Buna görə də daşnaklar Ankaranın başının Qərbdəki yunan-ingilis cəbhəsində mübarizəyə qarışmasından istifadə edib Türkiyə tərəfdən özlərinin təhlükəsizliyini təmin etməyi qərara aldılar, çünki Sovet Rusiyası təcavüzkar əməliyyatlara qətiyyən cəhd göstərmirdi. İrəvan hökuməti Qarabağın, Naxçıvanın və Sovet Federasiyasına açıq-aydın meyl edən ərazilərin ona verilməsi təklifi ilə çıxış etdi (1920-ci ilin iyununda), eyni zamanda daşnak qoşunlarının başçılarına məxfi əmr verdi ki, adları çəkilən ərazilərdə partizan əməliyyatlarına başlasınlar. Bu əməliyyatlar 1920-ci ilin sentyabrında başlandı. Eyni zamanda, ingilislərdən silah almış daşnaklar Kars vilayətinin və İrəvan quberniyasının hər yerində müsəlman əhalinin kütləvi qırğınını törətdilər. Şuragöl, Şərur-Dərələyəz, Kaqızman, Sürməli, Karakurt, Sarıqamış rayonlarını yandırıb külə döndərdilər: "Beləliklə, özlərinin arxa cəbhəsini təmin edərək" Maku sərdarının köməyinə arxayın olub, Oltuya və Kaqızmana hücuma keçdilər...

1920-ci ilin dekabrında Ermənistanda Sovet hakimiyyəti quruldu. 1921-ci il Rusiya-Türkiyə müqaviləsi Aleksendropol müqaviləsini ləğv etdi, Ermənistanla Türkiyə arasındakı sərhəd indiki xətlər şəklində müəyyənləşdirdi.

Həmin andan- erməni xalqının yeni dövlət quruluşu yaranmasından bəri erməni məsələsinin aradan qalxdığını hesab etmək olar. Düzdür, Ermənistanın sovetləşməsindən sonra Qərbi Avropa imperialistləri Lozanna konfransında erməni məsələsi ilə möhtəkirlik etməyə daha bir cəhd göstərdilər: "Erməni ocağı" yaratmaq, "milli azlıqlar"ın müdafiəsi üçün Millətlər Birliyinin nəzarəti altında Konstantinopolda xüsusi orqan təsis etmək layihəsi irəli sürüldü; lakin bu yalnız və yalnız Türkiyə nümayəndə heyətinin Mosul məsələsində güzəştə getməyə məcbur etmək məqsədi güddüyü üçün lazımi güzəştlər edilən kimi layihə aradan götürüldü...

Ermənilərə yeganə real köməyi Sovet Rusiyası göstərdi. 1923-cü ilin yanvarın 27-də Çiçerin yoldaş Lozanna konfransına bildirdi ki, Rusiya və Ukrayna hökumətləri xaricdəki erməni qaçqınların böyük bir hissəsini qəbul edə bilər. Bu zaman Çiçerin yoldaş tamamilə haqlı olaraq göstərdi ki, Sovet nümayəndə heyəti Erməni məsələsinin müzakirəsində iştirak etməkdən uzaqlaşdırıldığına görə həmin məsələ lazımi şəkildə həll oluna bilməzdi. Çiçerin yoldaşın məktubu xaricdəki erməni dairələrində hədsiz dərəcədə güclü əks-səda doğurdu: bir sıra xeyriyyə cəmiyyətləri, partiyalar Sovet hökumətinə minnətdarlıqlarını bildirdilər, həmçinin Rusiyanın təklifinin həyata keçirilməsinə dair planları haqqında məlumat verdilər.

"Böyük Ermənistan" proqramının tamamilə, həmişəlik süquta uğraması, indi Sovet Ermənistanında aparılan çox böyük təsərrüfat və mədəniyyət işləri "diaspor"dakı erməni siyasi partiyaları arasında qəti dönüş yaratdı. Erməni burjuaziyası və ziyalıları partiyası- liberal demokratlar (ramkavarlar) indi Sovet Ermənistanına mehriban münasibət bəsləyirlər. Onların Ermənistana göndərdikləri "kəşfiyyatçılar" Sovet hakimiyyətinin dinc quruculuq işləri ilə tanış olmuş, nəticədə ramkavarların mətbuatında Sovet ölkəsinə böyük rəğbətlə yazılan materiallar verilmişdir. Hətta millətçi Qnçaq partiyası da bu cür mövqe tutmuşdur.

Əvvəlki kimi Sovet Ermənistanına hədsiz nifrət bəsləyən yeganə partiya Daşnaksütyundur. O, yenə də silahlı müdaxiləni, ölkənin daxilində partizan müharibəsi aparmağı və üsyan qaldırmağı təbliğ edir, halbuki bu istiqamətdə göstərilən son cəhd yeni 1921-ci ilin fevralında Vratsyanın əksinqilabi çevrilişi tam uğursuzluqla nəticələnmiş, ölkədə qısa, lakin qanlı vətəndaş müharibəsi doğurmuşdu. İndi Daşnaksütyun partiyası mənəvi cəhətdən çürüməkdədir, hətta mühacir kütlələr arasında nüfuzunu itirirhazırda qaçqınların Sovet Ermənistanına köçürülməsi üçün Avropada və Amerikada yığılan (əsas etibarilə daşnaksakanların Qırmızı Xaç Cəmiyyəti tərəfindən) vəsaiti mənimsəmək hesabına dolanır. Yeri gəlmişkən, erməni mühacirləri arasında ən vicdanlıları özlərinin əvvəlki istiqamətini dəyişir və keçmişdən əl çəkərək, təqsirlərini boyunlarına alıb Vətənə qayıdırlar.

Sovet çevrilişindən sonra Daşnaksütyun şübhəsiz tam ölümə məhkumdur və bu ölümlə erməni məsələsinin tarixində yeni səhifə açılır.

***V.Qurko - Kryajin 1926-cı ildə Moskvada "Böyük Sovet Ensiklopediyası" səhmdarlar cəmiyyətinin buraxdığı Böyük Sovet Ensiklopediyasından tərcümə edilmişdir.***



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

23 dekabr

QARABAĞ AZƏRBAYCANDIR!

# "Barselona"nın transfer hədəfi: Memfis Depay və Erik Qarsiya!

***İspaniyanın "Barselona" futbol klubunun qış transfer dönəmindəki əsas hədəfləri bəlli olub. SİA-nın məlumatına görə, Kataloniya təmsilçisi Fransa "Lion"undan Memfis Depay və İngiltərə "Mançester Siti"sindən Erik Qarsiyanı heyətinə cəlb etmək niyyətindədir.***

Klub bəzi zədəli oyunçulara görə xeyli zəifləyən heyəti bu iki futbolçu sayəsində gücləndirməyi planlaşdırır. Qeyd edək ki, Memfis Depayın klubu ilə müqaviləsi 2021-ci ilin yayında başa çatmalıdır. Qarsiya isə "Barselona"nın yetirməsidir və 2016-cı ildə 1,7 milyon avro qarşılığında İngiltərə təmsilçisinə keçib.



# "Milan" 18 yaşlı hücumçunu transfer edir



İtaliyanın "Milan" futbol klubunun transfer siyahısına daha bir futbolçu əlavə olunub. SİA-nın məlumatına görə, A seriyası təmsilçisi Fransa "Tuluza"sında çıxış edən Yanis Antisteni transfer etmək niyyətindədir. 18 yaşlı hücumçu böyük perspektiv vəd etdiyindən milanlılar da onu heyətində görmək istəyir. Hücum xəttini gücləndirməyi prioritet sayan milanlılar "Real"ın forvardı Luka Yoviçin də xidmətində maraqlıdır.

# Evdən meyit tapıldı

Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Ağdam rayonunun İkinci Baharlı qəsəbəsində su hövzəsində aşkar edilmiş 1 nəfərin meyitinin çıxarılmasına köməklik göstərilməsi üçün müraciət daxil olub. SİA-nın nazirliyin rəsmi saytına istinadən verdiyi xəbərə görə, hadisə yerinə cəlb olunan Qarabağ Regional Mərkəzinin xilasedicilərı 1965-ci il təvəllüdlü Həsənova Zibeydə İbad qızının meyitini aidiyyəti üzrə təhvil veriblər.



# "Gözəl qadınların bəxti olmur"

Əməkdar artist Nailə İslamzadə ötən gün dünyasını dəyişən Xalq artisti Səfurə İbrahimova ilə bağlı paylaşım edib. SİA-nın məlumatına görə, aparıcı şəklə bu sözləri qeyd edib: "Səfurə xanım, ilk bahar qızımız... Son dəfə bir il əvvəl evində görüşdük, bir möcüzə idi onun "Ötən



günlər"ə gəlməsi... Xeyli dərdləşmişdik. "Gözəl qadınların bəxti olmur" deyirdi. Həyatdan, teatrdan incik getdi. Məkanı cənnət, ruhu şad olsun. Allah rəhmət eləsin".

# Professor: Koronavirusa tam qalib gələ bilməyəcəyik



Son günlər Ümumdünya Səhiyyə Təşkilatının koronovirusun yeni ştammı olan SARS-CoV-2-nin yayılması barədə dünya ölkələrinə müraciəti cəmiyyətdə ciddi narahatlığa səbəb olub. İngiltərə Səhiyyə Nazirliyi dekabrın ortalarında mutasiyaya uğradığı aşkar edilən yeni virusun həmişəkindən daha tez yayıldığını bildirib.

Xezerxeber.az xəbər verir ki, bunu Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Ümumi cərrahiyyə şöbəsinin müdiri, tibb elmlər doktoru, professor Mübariz Əliyev deyib.

Klinikanın şöbə müdirinin sözlərinə görə, koronavirusun yeni ştammının yayılma sürətinin də SARS virusunun yayılmasına bənzər olacağı ehtimal olunur. O bir canlı orqanizmdən digərinə keçir və yalnız müəyyən müddət bioloji nəm mühitlərdə qala bilir. Ona görə qorunma vasitəsi kimi tətbiq olunan maska taxılması və məsafənin saxlanılması profilaktikada əsas rol oynayan səbəblərdir. Doğrudur, maska vasitəsilə tam qorunmaq mümkün olmasa da, müəyyən qədər yayılmanın qarşısı alınır. Elə buna görə də hazırda epidemioloji tədbirlərin ən vacibi maskadan istifadə edilməsidir, çünki virus boş səthlərə düşəndə qısa müddətdə məhv olur. Əvvəllər onun iki gün, sonralar iki saat ərzində məhv olduğunu söyləyirdilər, son araşdırmalara görə isə daha tez məhv olur.

Professor daha sonra deyib: "Aparılan vaksinasiya tədbirləri infeksiyanın yayılmasının qarşısını xeyli dərəcədə alacaq. 2001-ci ildə İspaniyada SARS-1-ə yoluxanların əksər hissəsi, bəlkə də hamısı SARS-CoV-2-yə yoluxmadı. Deməli, SARS-2-yə yoluxan xəstənin ikinci dəfə COVID-19-a yoluxma ehtimalı həddindən artıq azdır, lakin mümkündür. Mən öz təcrübəmdə ikinci dəfə COVID-19-a yoluxan xəstə ilə üzləşməmişəm. Lakin bunu heç kəs deyə bilməz ki, bir dəfə yoluxanın təkrar yoluxması mümkün deyil. Əlbəttə, bu ehtimal var, lakin çox azdır. SARS-2 üçün hazırlanan vaksin SARS-3 üçün də səmərəli bir vasitədir. Əslində söhbət heç də SARS-3-dən yox, SARS-2-nin mutasiyasından gedir. Yenə deyirəm, SARS-3 adlı virus yoxdur, lakin gözlənilir. Yəni virus o dərəcədə mutasiyaya uğramalıdır ki, onu SARS-3 adlandıra bilsinlər. Yaradılan vaksin çox böyük ehtimalla həmin virusun aradan qaldırılması üçün səmərəlidir. Ümid etməyə dəyməz ki, bu xəstəlik aradan qalxacaq və ona yoluxma bir də baş verməyəcək. Bu, çiçək xəstəliyi deyil, vəba deyil, taun deyil. Bu, virusdur. Neçə yüz illərdir qrip virusuna qalib gəlmək mümkün deyil, QİÇS-ə, hepatit viruslarına qalib gəlməmişik, koronavirusa da qalib gələ bilməyəcəyik. Söhbət tam və qəti qələbədən gedir. Sadəcə olaraq biz bu virusla yaşamağı öyrənməliyik. Bunun da ən yaxşı yolu vaksinasiyadır.

Nə qədər maksimal dərəcədə qorunmağa çalışsaq da, koronavirus müəyyən yollarla hər bir evə daxil olur. Onun qarşısını almaq tədbirləri hər kəsin özündə olmalıdır, çünki başqa heç bir yolla xəstə axınının qarşısını almaq mümkün deyil. ABŞ, Almaniya, İngiltərə, İtaliya kimi böyük ölkələr də bu qədər xəstə axınının qarşısında duruş gətirə bilmir. İndiyə qədər ölkəmizdə görülən tədbirlər xəstə axınının qarşısını almağa xidmət edirsə, bu, özü də böyük qələbədir".

# İmmunoloq: Barmaqdan qan analizi verməklə koronavirusa yoluxub-yoluxmamağı müəyyən etmək olmaz

***Son günlər barmaqdan qan analizi verməklə qısa müddət ərzində yeni növ koronavirusa (COVID-19) yoluxub-yoluxmamağın müəyyən edilməsi barədə informasiyalar dolaşır, hətta bu üsuldan istifadə edərək testdən keçənlər də var. Həmin testlərin nəticəsi 10 dəqiqə ərzində müəyyən edilir.***

Azərbaycan Tibb Universitetinin dosenti, immunoloq Həyat Əliyeva AZƏRTAC bildirib ki, həmin testlər əhalidə COVID-19-un cavabı barədə çaşqınlıq yaradır. O bildirib: "Anticisimlər infeksiyaya yoluxandan 10 gün sonra yaranmağa başlayır. Lakin onu birinci gündən təyin etməyə cəhd göstərmək tamamilə yanlışdır. Məsələn, aparılan həmin testin nəticəsində alınan neqativ cavab arxayınlıq yaradır və əslində infeksiyaya yoluxmuş xəstə özünü sağlam hesab edir. Yaxud əksinə, sağalma prosesində anticisim aşkar edilə bilər və bu, yoxlanılan şəxsdə xəstə olması təsəvvürü yaradır".



Ev şəraitində test olunmaqla koronavirusa yoluxub-yoluxmamağı müəyyən etmək riskli hesab olunur. Mütəxəssislər bir daha xəbərdarlıq edir ki, özündə COVID-19-un əlamətlərini hiss edənlər mütləq şəkildə gecikmədən tibb müəssisəsinə və həkimə müraciət etməlidir.

# "Liverpul" ilin ən yaxşı komandası seçilib

BBC telekanalı 2020-ci ildə idman dünyasının ən yaxşı komandası və məşqçisinin adını açıqlayıb. SİA-nın məlumatına görə, idman dünyasında ilin ən yaxşı komandası "Liverpul", ən yaxşı məşqçi isə sonuncunun çalışdırıcısı Yurgen Klopp seçilib. Qeyd edək ki, Y.Kloppun rəhbərliyi altında İngiltərə təmsilçisi ötən mövsüm son 30 ildə birinci dəfə Premyer Liqanın qalibi olub.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600